## Cəmiyyət sertifikasiya imtahanını dəstəkləməlidir

Adı müəllim olan hər bir şəxs öz ixtisası üzrə 50 faizdən aşağı nəticə göstərməməlidir



**Müəllimlərin sertifikatlaşdırma prosesi geniş müzakirələrə səbəb olub.**

Xüsusilə Azərbaycan dili və ədəbiyyat müəllimləri arasında yaranan narazılıqlar ictimaiyyətin diqqət mərkəzindədir. Elm və təhsil naziri Emin Əmrullayev məsələyə münasibət bildirərək, sertifikatlaşdırma nəticələrinin təhlili və apellyasiya müraciətlərinin ədalətli şəkildə qiymətləndirilməsi barədə açıqlama verib.

(səh.7)



## İƏT qətnaməsi Ermənistana mesajdır

Qərbi Azərbaycan gündəmin mərkəzindədir

İstanbulda keçirilən İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Nazirlər Şurasının 51-ci sessiyası çərçivəsində Azərbaycanın təşəbbüsü ilə təqdim olunan beş mühüm qətnamənin qəbul olunması ölkəmiz üçün, xüsusən Qərbi Azərbaycana qayıdış siyasətimiz kontekstindən həqiqətən də mühüm hadisədir.

№ 110 (6351) 2025-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 26 iyun 2025-ci il (cümə axşamı)



## Hər kəs qürur duyur

Azərbaycan Ordusu regionun ən qüdrətli və müasir hərbi qüvvəsinə çevrilib

**Bu gün Azərbaycan Silahlı Qüvvələr Gününün 107-ci ildönümüdür. Azərbaycan Silahlı Qüvvələrinin əsası 1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyulub.**

Həmin gün Azərbaycan Ordusunun yaradılması barədə qərar qəbul edilib və milli hərbi hissələrin formalaşdırılmasına başlanılıb. Bu tarixi qərar Azərbaycan xalqının milli müstəqillik və özünümüdafiə ideyalarının reallaşdırılmasında ilkin mərhələ hesab edilir.

(səh.2)



## Dörd polkovnikə general-mayor rütbəsi verilib

**Prezident İlham Əliyev Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına "general-mayor" ali hərbi rütbəsinin verilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncama əsasən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçularına general-mayor ali hərbi rütbəsi verilib:

polkovnik İdris Mustafa oğlu Məhərrəmova

polkovnik Vasif Tofiq oğlu Xəlilova

polkovnik Elnur Sadıq oğlu Kazımova

polkovnik Elgün Aqil oğlu Əliyevə.

# Yaxın zamanda savaş yenidən başlaya bilər

## Tramp: "İsrailin havaya qalxan 52 təyyarəsini geri qaytardıq"




**Hollandiyanın Haaqa şəhərində keçirilən NATO Dövlət və Hökumət Başçıları Zirvəsində mühüm qərarlar qəbul edildi və ciddi açıqlamalar verildi.**

Zirvədə yayımlanan yekun bəyannamədə, NATO üzvü ölkələr 2035-ci ilə qədər müdafiəyə ÜDM-in 5 faizinə qədər vəsait ayırmağı öhdələrinə götürdülər. Növbəti zirvənin Türkiyədə keçiriləcəyi bildirildi.

"Şərq" xəbər verir ki, ABŞ Prezidenti Donald Tramp, zirvənin ikinci günü başa çatdıqdan sonra Haaqa şəhərində mətbuat konfransı keçirib. Tramp, İranın Fordo nüvə obyektinin tamamilə məhv edildiyini bildirib və "İranın nüvə silahı istehsal qabiliyyətini illərlə geri atdıq" deyib. O əlavə edib:

"İranın uranı xaricə çıxara bilmədiyini düşünürəm, çünki biz çox sərt və sürətli şəkildə hücum etdik." "İsrail və İran arasındakı vəziyyəti mən "12 günlük müharibə" adlandırıram. Onların bir daha savaşacağını düşünmürəm, amma bəlkə yaxın zamanda yenidən başlayarlar. Hər iki tərəf yorulub və evlərinə dönmək istəyirlər."

İranın atəşkəsi az da olsa pozduğunu deyən Tramp, İsrailin havaya qaldırdığı 52 təyyarəni geri qaytardıqlarını qeyd edib...

(səh.2)



## "F-35 mövzusunda xoşniyyətlidir"

Ərdoğan Trampa "dəyərli dostum" dedi

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan NATO Liderlər Zirvəsindən sonra keçirdiyi mətbuat konfransında mühüm açıqlamalar verib. O, İran və İsrail arasında əldə olunan atəşkəslə bağlı olaraq "Dəyərli dostum Trampın çağırışlarına tərəflərin qeyd-şərtsiz əməl etmələrini gözləyirik" deyib. "Şərq" Ərdoğanın açıqlamalarından bəzi əsas məqamları təqdim edir.**

Ərdoğan bildirib ki, F-35 mövzusunda Trampın xoşniyyətli olduğunu görüb: "Biz bu layihəyə 1 milyard 300-400 milyon dollar ödəmişik. F-35-ləri almaq istəyirik.

(səh.2)



## Səsin də bir sərhədi olmalıdır

Elza Seyidcahanın metroda çıxışı müzakirə mövzusu oldu

**Böyük Britaniyada təhsil alan azərbaycanlı tələbələr maraqlı fləş-moba imza atıblar. Gənclər London metrosunda bir stansiyadan digərinə keçidlər edərkən Azərbaycan xalq mahnılarını səsləndiriblər. Tələbələrin fləşmobu sosial şəbəkələrdə yayılıb. Bəyənənlər çox olub.**

Xüsusi nəzərə çarpansa budur ki, belə bir davranış sərnişinlər tərəfindən də maraqla və xoş qarşılanır. Bunu sərnişinlərin üzündəki təbəssümdən görmək mümkündür. Oxşar hal Bakı Metropolitenində də yaşanıb. Amma bir qədər fərqli formada. Çünki bunu edən də hamıdan, hər kəsdən fərqlənməyə çalışan və nail də olan müğənni-bəstəkar Elza Seydcahandır.

(səh.5)

## Ermənistanda gizli dövlət çevrilişi baş tutmadı

Paşinyan keşiş və oliqarxların idarə etdiyi "terror planı"nı təmizlədi

**Ermənistanda terrorun və hakimiyyəti ələ keçirmək cəhdinin qarşısı alınıb. Ermənistan İstintaq Komitəsinin yaydığı bəyanatda deyilib ki, "Müqəddəs mübarizə" müxalifət hərəkatının lideri arxiyepiskop Baqrat Qalstanyan və onun tərəfdaşları ölkədə hakimiyyəti ələ keçirmək məqsədilə terror aktları hazırlayıblar.**

Qeyd olunub ki, 2024-cü ilin noyabr ayından arxiyepiskop Baqrat Ermənistan Konstitusiyası ilə icazə verilməyən şəkildə hakimiyyət dəyişikliyinə nail olmağı qarşısına məqsəd qoyub: "Bu məqsədə çatmaq üçün bir sıra hərəkət iştirakçılarının əvvəlcədən razılığı ilə terror aktları törətmək və hakimiyyəti ələ keçirmək üçün lazımi vasitələr və alətlər əldə edib".

(səh.3)






## Onu da tanıyın!

Qeyri-etik davranışa görə daha bir taksi sürücüsü saxlanılıb

**Qeyri-etik davranışına görə daha bir taksi sürücüsü məsuliyyətə cəlb olunub.**

Polis əməkdaşları tərəfindən Binəqədi rayonunda həyata keçirilən profilaktik tədbir zamanı 99-UX-472 dövlət qeydiyyat nişanlı "Opel Astra" markalı avtomobilin sürücüsünün qeyti-etik əməllərə yol verdiyi müəyyən olunub və o, məsuliyyətə cəlb edilib.

*Qeyd olunub ki, paytaxt ərazisində fəaliyyət göstərən bəzi taksi sürücülərinin qadın sərnişinlərlə xidmətə aid olmayan mövzularda söhbətlər aparmaları və yersiz təkliflər etmələri, etik normalara zidd davranışları barədə polis orqanlarına müraciətlər daxil olur. Bu halların qarşısının alınması məqsədilə paytaxtda profilaktik və nəzarət tədbirləri davam etdirilir.*



# Hər kəs qürur duyur

## Azərbaycan Ordusu regionun ən qüdrətli və müasir hərbi qüvvəsinə çevrilib

**Bu gün Azərbaycan Silahlı Qüvvələr Gününün 107-ci ildönümüdür. Azərbaycan Silahlı Qüvvələrinin əsası 1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyulub. Həmin gün Azərbaycan Ordusunun yaradılması barədə qərar qəbul edilib və milli hərbi hissələrin formalaşdırılmasına başlanılıb. Bu tarixi qərar Azərbaycan xalqının milli müstəqillik və özünümüdafiə ideyalarının reallaşdırılmasında ilkin mərhələ hesab edilir.**

Sovet dövründə bu proses süni şəkildə dayandırılsa da, 1991-ci ildə dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasında hərbi quruculuq yenidən strateji prioritetlər sırasında ön plana çəkilib. Azərbaycanın Silahlı Qüvvələrinin formalaşdırılması və inkişafında Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri var. Məhz onun sayəsində ölkəmizdə hərbi kadrların hazırlanması prosesinə başlanılıb. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə ordu quruculuğu sahəsində aparılan işlər ölkəmizdə mütəşəkkil, qüdrətli ordu yaratmağa imkan verib, onun gələcəkdə daha da möhkəmlənməsi üçün əsaslı zəmin yaradıb. Hələ 1971-ci ildə Ulu Öndər Heydər Əliyevin böyük zəhmətləri hesabına Azərbaycanda hərbi kadrlar hazırlayan və görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin adını daşıyan hərbi lisey yaradılıb. Ümummilli Lider azərbaycanlı zabit kadrların hazırlanması və azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərində oxuması və hətta SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunması üçün əlindən gələni edib. Dövlət müstəqilliyinin ilk illərindəki mürəkkəb geosiyasi və daxili vəziyyət fonunda nizami ordu quruculuğu zəruri və təxirəsalınmaz vəzifə kimi qarşıda dururdu. Məhz Heydər Əliyevin qətiyyətli siyasi iradəsi, strateji baxışları və praktiki tədbirləri nəticəsində Azərbaycanın Silahlı Qüvvələrinin inkişafında dönüş nöqtəsi yarandı. Onun rəhbərliyi ilə ordu sahəsində fundamental islahatlara başlanıldı. Ümummilli Lider Heydər Əliyevin 22 may 1998-ci il tarixli Fərmanına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan olundu və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir. Həmin dövrdən etibarən bu tarix ölkənin hərbi qüdrətinin təntənəsi kimi qeyd olunmaqla yanaşı hərbi vətənpərvərlik ruhunun gücləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Silahlı Qüvvələrimiz bu gün müasir tələblərə cavab verən, güclü və peşəkar orduya çevrilib. Xüsusilə Vətən müharibəsi (İkinci Qarabağ müharibəsi) Azərbaycan Ordusunun gücünü, peşəkarlığını və xalqla birliyini bütün dünyaya nümayiş etdirdi. Ordumuzun əldə etdiyi şanlı qələbə nəticəsində əzəli torpaqlarımız azad olundu və ərazi bütövlüyümüz bərpa edildi. Silahlı Qüvvələrimizdə xidmət edən hər bir əsgər, zabit və hərbçi bu gün Azərbaycanın təhlükəsizliyinin, müstəqilliyinin və əmin-amanlığının təminatçısıdır. Onların fədakarlığı, mərdliyi və vətənə sədaqəti hər bir vətəndaş üçün nümunədir.

**Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, hərbi-siyasi ekspert, polkovnik Cəlil Xəlilov "Şərq"ə açıqlamasında deyib ki, dünyada müşahidə olunan gərgin geosiyasi vəziyyət yeni tip müharibə üsullarının tətbiqi, iqtisadi sanksiyalar, separatizm, etnik və dini qarşıdurmalar, terrorizm və digər destabilizasiya cəhdləri region ölkələrinin hərbi və milli təhlükəsizlikləri üçün ciddi təhdidlər yaradır. Ekspertin sözlərinə görə, bu proseslər bir daha təsdiq edir ki, mövcud təhlükəsizlik sistemləri bu təhdidlərin qarşısını almaqda yetərincə səmərəli deyil:**

"Bu səbəbdən Azərbaycan milli təhlükəsizlik strategiyasını daim yeniləmək və dinamik mühitə uyğunlaşdırmaq zərurəti ilə üz-üzədir. Azərbaycan Respublikasının hərbi və milli təhlükəsizlik siyasəti həm xarici, həm də daxili təhdidlərin çevik şəkildə qiymətləndirilməsinə və bu təhdidlərə qarşı balanslaşdırılmış həm hərbi, həm də qeyri-hərbi vasitələrin tətbiqinə əsaslanır. Bu kontekstdə Silahlı Qüvvələrin müasirləşdirilməsi, peşəkarlığın artırılması və dövlətin hərbi qüdrətinin qorunub saxlanılması prioritet istiqamət olaraq qalır. Görməndüyü kimi, Azərbaycanın yaxın gələcəkdəki regional və qlobal mövqeyi onun necə bir xarici siyasət yürüdəcəyindən ciddi şəkildə asılı olacaq. Qlobal güclərin Cənubi Qafqazdakı maraqları və bu maraqlar uğrunda gedən mübarizədə Azərbaycanın öz milli maraqlarını maksimum qorumaq və hərbi təhlükəsizliyini möhkəmləndirmək üçün strateji addımlar atması zəruri edir. Bu səbəbdən ölkəmizin xarici siyasəti xüsusilə Ermənistanla olan keçmiş münaqişə fonunda hərbi-siyasi kursun ardıcıl və məqsədyönlü şəkildə davam etdirilməsini nəzərdə tutur".

C.Xəlilov qeyd edib ki, hazırkı mərhələdə prioritet məsələ yalnız ərazi bütövlüyünün qorunması deyil, eyni zamanda bölgədə davamlı sülhün təmin olunması və ölkənin müstəqil inkişafına təhdid yarada biləcək istənilən riski önləməkdir: "Azərbaycan ordusunun və təhlükəsizlik sisteminin bu vəzifələri icra etmək üçün hazır və bacarıqlı olması isə həm xalqımızın güvən mənbəyidir, həm də müstəqil dövlətçiliyimizin möhkəm dayağıdır. Müstəqil dövlətimizin və xalqımızın təhlükəsizliyinin təmin olunmasında Azərbaycan ordusunun rolu əvəzsizdir. Bu gün xalqımız güclü və rəşadətli ordusu, qəhrəman əsgər və zabitləri ilə haqlı olaraq qürur duyur. 26 İyun - Silahlı Qüvvələr Günü həm də xalqımızın gücünün, həmrəyliyinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Milli Ordumuzun formalaşması isə şanlı və zəngin bir tarixə əsaslanır. Bu tarix xalqımızın azadlıq və müstəqillik uğrunda apardığı mübarizənin canlı salnaməsidir. Ulu Öndərin təşəbbüsü ilə 1999-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin Hərbi Akademiyası, 2001-ci ildə isə Ali Hərbi Dənizçilik Məktəbi və Ali Hərbi Təyyarəçilər Məktəbi təsis olundu. Bunlar Azərbaycan Ordusunun peşəkar kadr potensialının formalaşdırılması istiqamətində atılmış mühüm addımlar idi".

**Polkovnik bəyan edib ki, qısa müddət ərzində Azərbaycan Ordusu regionun ən qüdrətli və müasir hərbi qüvvəsinə çevrilib:**

"Prezident İlham Əliyevin uğurlu dövlət idarəçiliyi və güclü iqtisadi inkişaf siyasəti nəticəsində ölkəmizin müdafiə qabiliyyəti daha da möhkəmləndirildi, milli təhlükəsizlik sistemimiz yüksək səviyyəyə çatdırıldı. Prezident İlham Əliyevin uğurlu dövlət idarəçiliyi və güclü iqtisadi inkişaf strategiyası müasir ordu quruculuğuna mühüm dəstək verdi. Müdafiə sahəsinə ayrılan maliyyə vəsaitləri hesabına Silahlı Qüvvələrimiz ən müasir texnika ilə təmin olundu, ölkəmizdə güclü müdafiə sənayesi yaradıldı. Hazırda Azərbaycanın müdafiə sənayesi müəssisələrində 1000-dən çox hərbi təyinatlı məhsul istehsal olunur və ordu NATO standartlarına yaxınlaşdırılır. Bu gün Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında yer almaqdadır. Müasir ordu modeli çərçivəsində Komando briqadaları, Xüsusi Təyinatlı Qüvvələr, pilotsuz uçuş aparatları ilə təchiz olunmuş bölmələr yaradıldı, döyüş hazırlığı və texnoloji üstünlük təmin edildi. Azərbaycan Ordusunun qüdrəti müxtəlif döyüşlərdə əyani şəkildə nümayiş etdirilib".

**İsmayıl Qocayev**

# Azərbaycan bölgəyə işıq saçır

## Enerji gücü ikiqat artdı, "8 Noyabr" enerji körpüsü olacaq

**İyunun 24-də ölkəmizin enerji sektorunda əlamətdar hadisə yaşandı. Mingəçevir şəhərində "8 Noyabr" Elektrik Stansiyasının açılış mərasimi keçirilib.**




Prezident İlham Əliyev sözügedən açılış mərasimindəki çıxışında diqqəti bəzi məsələlərə yönəldərək bildirib ki, bu ölkələrə çoxsaylı səfərləri nəticəsində bir sıra istiqamətlər üzrə çox gözəl nəticələr əldə edilib.

Ölkəmizin enerji potensialını böyük dərəcədə gücləndirəcək "8 Noyabr" Elektrik Stansiyasının açılışı da Azərbaycanın gücünü, potensialını, energetiklərimizin təcrübəsini, peşəkarlığını göstərir. "8 Noyabr" Elektrik Stansiyası ölkəmizin ən böyük elektrik stansiyasıdır. 1880 meqavat gücündə bu stansiya enerji potensialımızı təbii olaraq daha da gücləndirəcək, enerji sisteminin səmərəliliyini artıracaq. Dövlət başçısının da qeyd etdiyi kimi, bu stansiya Mingəçevirin nəinki Azərbaycanın, bütövlükdə Cənubi Qafqazın energetika mərkəzi olan statusunu daha da gücləndirəcək. Hazırda ölkəmizin elektrik enerjisinin 40 faizindən çoxu Mingəçevirdə istehsal olunur.

**Milli Məclisin deputatı Pərvanə Vəliyeva da "Şərq"ə açıqlamasında "8 Noyabr" Elektrik Stansiyasının açılışının Azərbaycanın enerji sektorunda mühüm dönüş nöqtəsi olduğunu deyib. Deputatın sözlərinə görə, Mingəçevirdə yerləşən "8 Noyabr" Elektrik Stansiyası yeni termik enerji layihəsidir və Azərbaycanın enerji sistemində strateji əhəmiyyət kəsb edir:**

"Bu stansiya ilə Mingəçevir Azərbaycanın və bütövlükdə Cənubi Qafqazın enerji mərkəzi statusunu daha da gücləndirir, ölkənin elektrik enerjisinə olan tələbatının təxminən 40 faizi buradan qarşılanır. Bu layihə Azərbaycan üçün strateji sərmayədir, həmçinin İtaliya və Çin şirkətlərinin bu layihəyə cəlb edilməsi beynəlxalq əməkdaşlığın göstəricisidir.

Mingəçevirdəki İstilik Elektrik Stansiyasının tarixi 1970-ci illərə gedib çıxır. 1974-cü ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə əsas bloklar tikilib və 1981-ci ildə istismara verilib. Mingəçevirin tarixi energetika mərkəzi kimi zəngindir və burada formalaşmış güclü kadr potensialı ölkəmizin uğurlar əldə etməsinə imkan yaradır.

2018-ci ildə "Azərbaycan" İstilik Elektrik Stansiyasının yenidən qurulmasının təməli qoyulub, 2020-ci il iyunun 25-də stansiyaya yeni həyat verilib. Hazırda "Azərbaycan" Elektrik Stansiyasının generasiya gücü 1800 meqavat, "8 Noyabr" Stansiyasının gücü 1880 meqavatdır, Su Elektrik Stansiyasının gücü isə 400 meqavatdan çoxdur".

**P.Vəliyeva qeyd edib ki, təxminən iki il ərzində ərsəyə gələn belə bir nəhəg layihənin qısa müddətdə istifadəyə verilməsi Azərbaycanda mövcud olan energetika bazasının, kadr təcrübəsinin və energetiklərin peşəkarlığının və eləcə də ölkəmizlə əməkdaşlıq edən İtaliya və Çin şirkətlərinin töhfələrinin nəticəsidir ki, ölkəmiz bu böyük uğuru qazanılmasına və həyata keçirilməsinə nail olub:**

"Bu layihə Azərbaycanın "Yaşıl enerji" strategiyasının tərkib hissəsidir. Ölkəmizin alternativ və bərpa olunan enerji imkanlarının geniş olması gələcəkdə külək və günəş enerjisi ilə təchiz olunmuş layihələr, enerji ixracı və saxlama sistemləri ilə bağlı beynəlxalq əməkdaşlıqların da artacağından xəbər verir".

**Şeymən**

# "F-35 mövzusunda xoşniyyətlidir"

## Ərdoğan Trampa "dəyərli dostum" dedi

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan NATO Liderlər Zirvəsindən sonra keçirdiyi mətbuat konfransında mühüm açıqlamalar verib. O, İran və İsrail arasında əldə olunan atəşkəslə bağlı olaraq "Dəyərli dostum Trampın çağırışlarına tərəflərin qeyd-şərtsiz əməl etmələrini gözləyirik" deyib. "Şərq" Ərdoğanın açıqlamalarından bəzi əsas məqamları təqdim edir.**



Ərdoğan bildirib ki, F-35 mövzusunda Trampın xoşniyyətli olduğunu görüb: "Biz bu layihəyə 1 milyard 300-400 milyon dollar ödəmişik. F-35-ləri almaq istəyirik." Türkiyənin müdafiə büdcəsinin NATO-nun müəyyən etdiyi 2 faiz həddini keçdiyini vurğulayan Ərdoğan, "5 faizlik hədəfə ən yaxın ölkələrdən biriyik" deyib. Rusiya-Ukrayna müharibəsinin ədalətli sülhlə sona çatmasının vacibliyini vurğulayan Ərdoğan, "Ədalətli sülhün məğlubu olmaz" ifadəsini işlədib. İsrailin hücumlarını sərt tənqid edən Ərdoğan, "İsrail bölgəni qeyri-sabit hala salaraq öz xalqının təhlükəsizliyini təmin edə bilməz" deyərək, Qəzzada 56 min insanın öldüyünü, 129 min insanın yaralandığını qeyd edib. Ərdoğan İran-İsrail gərginliyində əldə olunan atəşkəsə dair Trampın təşəbbüsünü alqışlayaraq, atəşkəsin daimi sükunətə çevriləcəyinə ümid etdiyini vurğulayıb. Ərdoğan NATO Zirvəsi çərçivəsində ABŞ, Almaniya, Böyük Britaniya, Fransa, Hollandiya və Rumıniya liderləri ilə görüşdüyünü, gələn il NATO Zirvəsinə Türkiyənin ev sahibliyi edəcəyini bildirib. Ərdoğan çıxışını "Bölgəmizdə barışın bərqərar olması üçün nə lazımdırsa edəcəyik, həqiqətləri cəsarətlə söyləməyə davam edəcəyik" sözləri ilə yekunlaşdırıb.

**Turan**

# Yaxın zamanda savaş yenidən başlaya bilər

## Tramp: "İsrailin havaya qalxan 52 təyyarəsini geri qaytardıq"

**Hollandiyanın Haaqa şəhərində keçirilən NATO Dövlət və Hökumət Başçıları Zirvəsində mühüm qərarlar qəbul edildi və ciddi açıqlamalar verildi. Zirvədə yayımlanan yekun bəyannamədə, NATO üzvü ölkələr 2035-ci ilə qədər müdafiəyə ÜDM-in 5 faizinə qədər vəsait ayırmağı öhdələrinə götürdülər. Növbəti zirvənin Türkiyədə keçiriləcəyi bildirildi.**




"Şərq" xəbər verir ki, ABŞ Prezidenti Donald Tramp, zirvənin ikinci günü başa çatdıqdan sonra Haaqa şəhərində mətbuat konfransı keçirib. Tramp, İranın Fordo nüvə obyektinin tamamilə məhv edildiyini bildirib və "İranın nüvə silahı istehsal qabiliyyətini illərlə geri atdıq" deyib. O əlavə edib:

"İranın uranı xaricə çıxara bilmədiyini düşünürəm, çünki biz çox sərt və sürətli şəkildə hücum etdik."

"İsrail və İran arasındakı vəziyyəti mən "12 günlük müharibə" adlandırıram. Onların bir daha savaşacağını düşünürəm, amma bəlkə yaxın zamanda yenidən başlayarlar. Hər iki tərəf yorulub və evlərinə dönmək istəyirlər."

İranın atəşkəsi az da olsa pozduğunu deyən Tramp, İsrailin havaya qaldırdığı 52 təyyarəni geri qaytardıqlarını qeyd edib:

"Heç bir şey etmədən geri döndülər. Müharibə bizim nüvə obyektlərini bombalamağımızla bitdi."

Tramp, İranla razılaşmanın zəruri olmadığını bildirsə də, "Bəlkə də imzalaya bilərəm. Gələn həftə onlarla danışacağam" deyib. O, İranın yenidən ayağa qalxması üçün neft satmasına icazə verilməsinin tərəfdarı olduğunu vurğulayıb.

**Putinlə danışdığını qeyd edən Tramp:**

"Putin mənə dedi ki, "İran və İsrail arasında sənə kömək edə bilərəm". Mən də ona "Yox, sən mənə Rusiya-Ukrayna məsələsində kömək et" dedim."

Tramp, Ukrayna prezidenti Zelenski haqqında "O cəsur biridir, lakin aramızda bəzi problemlər oldu" deyib və əlavə edib:

"Rusiyalıların niyyətləri Ukraynadan daha geniş ola bilər. Savaşı 24 saata bitirərəm dedikdə, əlbəttə simvolik danışırdım."

**Turan**

**Xarici işlər naziri (XİN) Ceyhun Bayramov İranın Azərbaycana yeni təyin olunmuş səfiri Müctəba Dəmirçilunu qəbul edib.**



Bu barədə XİN-dən məlumat verib.

Görüş zamanı, səfir etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib. Nazir səfiri təyinatı münasibətilə təbrik edib, ona ölkəmizdə diplomatik fəaliyyətində uğurlar arzulayıb.

Daha sonra iki ölkə arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyi, bölgədə cari təhlükəsizlik məsələləri, o cümlədən, İsrail-İran qarşıdurması müzakirə olunub.

# İranın yeni səfiri Bakıya gəldi, Ceyhun Bayramovla görüşdü

Azərbaycanla İran arasında dost münasibətlərin inkişafında ölkə liderləri arasında təmasların, o cümlədən mövcud siyasi dialoqun vacibliyi, ümumi maraq kəsb edən məsələlərin müzakirəsinin əməkdaşlığın genişləndirilməsinə töhfə verdiyi vurğulanıb.

İsrail-İran qarşıdurması ilə əlaqədar ölkəmiz tərəfindən nümayiş etdirilmiş mövqe və narahatlığımız bir daha diqqətə çatdırılıb. İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, digər rəsmi şəxslərin və İran vətəndaşlarının həlak olması ilə bağlı başsağlığı diləkləri səfirə bildirilib. Mövcud problemləri yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, dialoq və diplomatik yollarla həll etməyin vacib olduğu qeyd edilib.

Azərbaycanın quru sərhədindən istifadə etməklə müxtəlif ölkələrin və İranın vətəndaşlarına keçid üçün şərait yaradıldığına görə Azərbaycan tərəfinə təşəkkür ifadə olunub.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



# İstanbul, Fatih cami və 130 saylı məzar

*Akif Aşırlı yazır*

**İstanbula gəlişimin ikinci günündə əvvəlcədən planlaşdırdığım, amma işlərin çoxluğundan vaxt tapa bilmədiyim arzularımdan birini reallaşdırdım.**

Azərbaycan kəlməsini ilk dəfə qəzet səhifələrinə gətirən, milli kimlik axtarışlarını müzakirə müstəvisinə yönəldən, ilk anadilli mətbəə yaradan, Quranı tərcümə edən, uşaqların təlim-tərbiyəsi ilə bağlı dərslik yazan Ünsizadə qardaşlarının yaşca və başca ən böyüyü Səid Ünsizadənin (1842-1903) məzarını ziyarət elədim. Səid əfəndi müqəddəs bir məkanda, Osmanlı dövlətinin sultanları, şahzadələri, sərkərdələri, elm-bilim insanları və övliyalarının uyuduğu bir məkanda, Fatih cami həzirəsində dəfn olunub. Bu şərəfə ancaq və ancaq seçilmişlər layiq görülüb. Hər kəsə, sıradan birinə bu haqqın tanınması qeyri -mümkündür. Bu haqqı zamanın, dövlətin, dövrün və səltənətin şərtləri, qadağası, əsrlərlə daşlaşan qaydaları müəyyənləşdirib. Baş daşında yazıldığı kimi, "bu məzarda əbədi yolçuluğa varanın kimliyini bilmək istəsən, kitabxanalarda axtarmalısan". Səid əfəndi kiabxanalarda axtarılacaq o şəxsiyyətdir ki, Tiflisdə 1878-ci ildə "Əkinçi" qəzetindən sonra ikinci anadilli mətbuatımız "Ziya"nı ("Ziyayi-Qafqaziyyə"ni) yaradıb, ilk milli mətbəəni qurub, gələcək dövlətimizin adı Azərbaycan kəlməsini ilk dəfə anadilli mətbuatımıza gətirib. Özü ilə bərabər qardaşları Cəlalı, Kamalı, övladlarını və hətta kürəkənini maarifçilik missiyasının ən yaxşı vasitəsi olan qəzetçiliyə cəlb edib. Onlara yazmağı, düşünməyi, millət yolunda fədakarlığı öyrədib, mətbuatımızın "Ünsizadələr mərhələsi"ni yaradıb. Daşbasma üsulu ilə qurduğu özəl mətbəəsində dini kitablarla yanaşı Avropa və rus ədəbiyyatının örnəklərini türkcə nəşr edib, maarifçilik missiyasını çiyinlərində uğurla apara bilib. 1890-cı ildən başlayaraq Ünsizadələr Rusiyanın Qafqazlardakı hakim elitasının basqıları ilə üzləşib, qardaşların fəaliyyətinə qadağalar qoyulub, əsassız ittihamlar, şər-böhtanlarla üz-üzə qalıblar. Pantürkizmdə, panislamizmdə ittiham olunan Səid əfəndi Rusiya dövlətinə bir neçə dəfə rəsmi müraciət edərək Türkiyəyə köçməsinə icazə verilməsini xahiş edib. Amma mühacirətə rəsmi razılıq  verilməsə də, saxta sənədlərlə İstanbula keçməyi bacarıb. Həmin dövrdə İstanbulda təhsil alan Ömər Faiq Nemanzadə sonralar memuarında yazırdı ki, Səid əfəndi Ünsizadə hamını heyrətə salacaq addım ataraq pasportsuz Türkiyəyə gələ bildi. 1892-ci ildə Səid əfəndinin İstanbul həyatı başlayır. Öncə Osmanlı dövlətinin Maarif Məclisində, bir müddət Şəriyyə (ruhani) idarəsində çalışıb. Yetərincə bilgili olması, Rusiyanın ictimai-siyasi durumunu və Qafqazları çox yaxşı bilməsi Səid əfəndinin Osmanlı sarayına yolunu açıb. Türkiyənin arxiv məlumatlarına görə, Səid əfəndi 1892-ci ildə Mübeyndə Sultan İkinci Əbdülhəmidin hüzuruna çıxarılır və onunla görüşür. Rusiya-Türkiyə müharibələrinin sona çatmadığı bir dövrdə Rusiyaya qarşı aparılacaq siyasətin formalaşmasında, qərarların qəbulunda təbii ki, sarayla əlaqəli çalışan Səid əfəndinin rolu var. Osmanlı dövləti Səid Ünsizadəyə aylıq maaş kəsib, evlə təmin edib. İstanbula mühacirət edən Cəlal əfəndi Ünsizadə də Osmanlı dövlətinin imtiyazlarından yararlanır, tərcümələr edir, "Məlumat" qəzetində çalışır, rusca qəzetlərdən etdiyi tərcümələr xarici siyasət idarəsində çalışanların işinə yarayır. Türkiyə Xarici İşlər Nazirliyində rəsmi işçi sifətilə çalışan Cəlal əfəndi Ünsizadə vaxtilə Tiflisdə çap etdirdiyi "Kəşkül"dən sonra "Daniş" adlı qəzet çıxarmaq istəyir, amma icazə ala bilmir. Atatürkün hakimiyyətinin ilk illərində rusca qəzet nəşr etmək həvəsinin üzərinə soyuq su tökülür. 1933-cü ildə Ankarada vəfat edir, məzar yeri bilinmir. Amma Böyük Ünsizadə Səid əfəndi Osmanlı səltənətinin ən müqəddəslərinin dəfn olunduğu həzirədə, 130 saylı məzarda uyuyur.

Fatih cami həzirəsi təmir olunduğundan Səid əfəndinin məzarını ziyarət etmək çətin bir iş idi. Sağ olsun camini idarə edən rəhbərlik, bu imkanı yaratmaqla Azərbaycan Milli Mətbuatının 150 illiyi ərəfəsində savab bir iş gördü. Səid əfəndi Ünsizadənin məzarı çox sadədir. İki baş daşı, sinə daşı və üzərində yazılar var. Amma məzar tamamilə yeniləndiyi üçün yazılar da müvəqqəti silinib, bir il içində aparılan təmir sonrası əvvəlki vəziyyətinə qaytarılacaq.

# Tovuzda dönərdən zəhərlənənlərin sayı 23-ə çatıb

## Araşdırmaların nəticələri ilə bağlı əlavə məlumat veriləcək

**Qida Təhlükəsizliyi Agentliyi (AQTA) Tovuzda dönərdən zəhərlənmə hadisəsini araşdırır.**

Bu barədə AQTA-dan bildirilib.

"Baş verən hadisənin səbəbləri, həmçinin qida zəhərlənməsi olub-olmaması ilə bağlı Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin mütəxəssisləri ilə müvafiq qurumların əməkdaşları tərəfindən araşdırmalara başlanılıb.

Hazırda araşdırma davam etdirilir. Araşdırmaların nəticələri ilə bağlı əlavə məlumat veriləcəkdir".







Qeyd edək ki, dünən Tovuz rayonunda dönərdən zəhərlənmə faktı qeydə alınıb. Hazırkı məlumata görə, zəhərlənənlərin sayı 23-ə çatıb.

Tovuz rayonunda dönərdən zəhərlənən 23 nəfərdən 20-sinin kimliyi bilinib.

**Teleqraf onların siyahısını təqdim edir:**

1 - Əli Əliyev (2022)
2 - Aysu Cəfərova (2007)
3 - Xatirə Musayeva ( 1979)
4 - Ruslan Əmraslanov ( 2008)
5 - Rəvan Eyvazov (2017)
6 - Ramal Eyvazov ( 2013)
7 - Daşdəmir Eyvazov ( 1983)
8 - Pünhanə Əkbərli ( 2006)
9- Emil Kərimli (2016)
10 - Elif Kərimli ( 2018)
11 - Səhanə Əliyeva ( 1997)
12 - Aygün Hüseynova ( 2006)
13 - Qədir Yusifov (2012)
14 - Səbinə Muradova (1997)
15 - Şahanə İsmayılova (1987)
16 - Dilək Musayeva (2015)
17 - Nürəddin Məmmədov (2005)
18 - Suqara Abdullayeva (1991)
19 - Təhminə Məmmədova (2009)
20 - Məhəmmədəli Hacıyev (2008)

# Ermənistanda gizli dövlət çevrilişi baş tutmadı

## Paşinyan keşiş və oliqarxların idarə etdiyi "terror planı"nı təmizlədi



**Ermənistanda terrorun və hakimiyyəti ələ keçirmək cəhdinin qarşısı alınıb. Ermənistan İstintaq Komitəsinin yaydığı bəyanatda deyilib ki, "Müqəddəs mübarizə" müxalifət hərəkatının lideri arxiyepiskop Baqrat Qalstanyan və onun tərəfdaşları ölkədə hakimiyyəti ələ keçirmək məqsədilə terror aktları hazırlayıblar.**

Qeyd olunub ki, 2024-cü ilin noyabr ayından arxiyepiskop Baqrat Ermənistan Konstitusiyası ilə icazə verilməyən şəkildə hakimiyyət dəyişikliyinə nail olmağı qarşısına məqsəd qoyub: "Bu məqsədə çatmaq üçün bir sıra hərəkat iştirakçılarının əvvəlcədən razılığı ilə terror aktları törətmək və hakimiyyəti ələ keçirmək üçün lazımi vasitələr və alətlər əldə edib". Hərəkatın "Telegram" kanalında yaydığı mesajda isə deyilib ki, Ermənistanda hüquq-mühafizə orqanlarının əməkdaşları səhər saatlarından etibarən "Müqəddəs Mübarizə" üzvlərinin və tərəfdarlarının evlərində axtarışlar aparıblar. Ümumilikdə 90-dan çox ünvanda axtarış aparılıb. Dövlət çevrilişi hazırlamaqda şübhəli bilinən 14 nəfər saxlanılıb. O cümlədən keşiş Baqrat Qalstanyanın da saxlandığı deyilir.

Məsələ ilə bağlı Ermənistanın Baş naziri Nikol Paşinyan da paylaşım edib. O, hüquq-mühafizə orqanlarının ölkədə hakimiyyətin ələ keçirilməsinin qarşısını aldığını deyib: "Hüquq-mühafizə orqanlarının əməkdaşları kriminal oliqarx ruhanilərin Ermənistan Respublikasında sabitliyi pozmaq və hakimiyyəti ələ keçirmək məqsədilə həyata keçirdiyi irimiqyaslı və bədnam planın qarşısını alıblar". Qeyd edək ki, bundan öncə hakimiyyəti güc yolu ilə devirəcəyinə eyham vuran erməni milyarder Samvel Karapetyan da həbs olunub. Eyni aqibəti keşiş Baqratın da yaşayacağı gözlənilir. Son məlumatlara görə, qatı millətçi Daşnaksütyun Partiyasında da axtarışlar və həbslər gedir. Partiyanın Ali orqanının üzvü İqor Sarkisyanın, Abovyan komitəsinin üzvü Vardan Avakyanın, eləcə də Noyemberyan və digər şəhər təşkilatlarının üzvlərinin həbs edildiyi bildirilir. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, Paşinyanın Ermənistanda dövlət çevrilişinə cəhdin qarşısının alınması ilə bağlı bəyanatı İrəvanın daxili işidir. Onun sözlərinə görə, Rusiya Ermənistanla, o cümlədən biznesmen Karapetyanın həbsi ilə əlaqədar vəziyyətlə bağlı təmasdadır. Kremlin sözçüsü vurğulayıb ki, Moskva İrəvanda qanunun aliliyinin təmin olunmasında maraqlıdır.

**ReAL Partiyasının sədri Natiq Cəfərli "Şərq"ə bildirib ki, Ermənistanda bir il sonra keçiriləcək, ölkənin gələcəyini müəyyən edəcək parlament seçkilərinə hazırlıq tam sürət gedir. Partiya rəhbəri qeyd edib ki, Ermənistanda müxaliflərə qarşı həbsləri Paşinyanın "anti-Rusiya" addımları kimi qələmə verənlər var:**

"Mən bunun tam əksini düşünürəm. Tam tərsi, Paşinyan və komandasının Moskva ilə ciddi heç bir problemi yoxdur, son zamanlar isə münasibətlər daha da istiləşib. Ümumiyyətlə, İrəvan 2022-dən bəri Rusiyaya sanksiyalardan yan keçməyə kömək edən ən vacib 3-5 ölkədən biridir. Ermənistan iqtisadiyyatının 70 faizinə Rusiya nəzarət edir. Rusiya hərbi bazaları ilə bağlı heç bir addım atılmayıb, əksinə, onların statusu bir daha təsdiq edilib. Fikrimcə, Paşinyan Moskva ilə növbəti dəfə anlaşandan, bəzi kiçik problemləri həll etdikdən sonra, elə həmin Kremlin razılığı ilə daxili siyasətdə "təmizləmə" işləri aparır ki, 2026-cı il seçkilərində maneələr qalmasın. Kreml həmişə etdiyini edir, yəni öz adamlarını istifadə edir, istədiyini alır, sonra "qurban" verir".

**N.Cəfərliyə görə, Rusiya Ermənistanda bəzi keşiş, kilsə, biznesmen, siyasətçiləri təzyiq üçün istifadə etdi, istədiyini aldı, indi də onların sıradan çıxarılmasına "yaşıl işıq" yandırdı:**

"Bəziləri anlaya bilmir ki, 2018-dən bəri Rusiya bütün gücünü, nüfuzunu, resurslarını istifadə etsəydi, bu 7 ildə Paşinyanı 7 dəfə devirərdi. Ancaq etmədi. Çünki Paşinyan Rusiyaya da sərf edir. Guya Moskva ilə "dalaşır", Qərblə yaxınlaşır. Qərb də Ermənistanı "demokratiya" sayıb, öz maraqlarına uyğun olaraq Moskva ilə İrəvan üzərindən alverini edir. Bundan başqa, Rusiyanın əlində, cibində olanlar artıq "işlənmiş materialdır", onları "diriltmək" cəhdi Rusiyaya sərf etmir. Ukraynada buna cəhd etdilər, Yanukoviçi "diriltdilər", nəticədə Ukraynanı siyasi və tarixi anlamda itirdilər. Eyni səhvi Ermənistanda etmək istəmirlər".

**İsmayıl**

# İƏT qətnaməsi Ermənistana mesajdır

## Qərbi Azərbaycan gündəmin mərkəzindədir



**"Qayıdış Azərbaycanın müəyyən etdiyi qaydada baş verə bilər. Yəni qarşılıqlılıq, bərabərlik və fərdi qaydada..."**

**İstanbulda keçirilən İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Nazirlər Şurasının 51-ci sessiyası çərçivəsində Azərbaycanın təşəbbüsü ilə təqdim olunan beş mühüm qətnamənin qəbul olunması ölkəmiz üçün, xüsusən Qərbi Azərbaycana qayıdış siyasətimiz kontekstindən həqiqətən də mühüm hadisədir.**

Çünki İslam dünyasının ən nüfuzlu beynəlxalq birliyi sayılan İƏT-in sessiyasında Qərbi Azərbaycan məsələsi də gündəlikdəki əsas məsələlərdən birinə çevrildi və ilk dəfə olaraq Qərbi Azərbaycan icmasına dair qətnamə qəbul edildi. Qətnamənin adı da kifayət qədər aktual və diqqətçəkəndir. "Hazırkı Ermənistan ərazilərindən zorla və sistematik şəkildə didərgin salınmış azərbaycanlıların qayıdış hüququ" adlı həmin qətnamədə İƏT-in üzv dövlətləri Qərbi azərbaycanlıların ləyaqətli şəkildə öz yurdlarına qayıtmaq hüququna dəstək verib, eyni zamanda isə Ermənistanın bu hüquqları inkar etməsi birmənalı şəkildə pislənilib. Beləliklə, İƏT-in Qərbi azərbaycanlıların öz tarixi torpaqlarına qayıtmaq hüququnu dəstəkləməsi Ermənistanı fakt qarşısında qoydu.

**Siyasi şərhçi Abutalıb Səmədov deyib ki, İƏT-in 51-ci sessiyasında qəbul olunmuş qətnamə Azərbaycan Prezidentinin bir neçə il bundan öncə elan etdiyi hücum diplomatiyasının növbəti uğurudur. Ekspert bildirib ki, Azərbaycan diplomatiyası artıq uzun müddətdir ki, müdafiə mövqeyində dayanmaqdan imtina edib:**

"Haqlı iddialarımızı, haqlı problemlərimizi müxtəlif tədbirlərdə, tribunalarda, forumlarda cəsarətlə qaldırırıq, ciddi nəticələrə nail oluruq. Təbii ki, bu da ermənilər üçün son dərəcə əlverişsiz vəziyyət yaradır, narahatlığa səbəb olur. Qərbi Azərbaycandan qovulan soydaşlarımızın geri qayıtmaq hüququ onların ən təbii insan haqqıdır. Ermənistan tərəfi bunu anlamaqda güclük çəkir. Qarabağ ermənilərinin yenidən Azərbaycan ərazisinə qayıtma məsələsini ortaya qoyurlar, hər fürsətdə gündəmə gətirirlər. Üstəlik, onların fərdi yox, kollektiv şəkildə qayıtmasını tələb edirlər. Ancaq ötən əsrin əvvəllərindən başlayaraq əsrin sonunadək zorla öz yurdlarından qovulan 1 milyona yaxın həmvətənimizin məsələsini qaldırmağa bizə imkan vermək istəmirlər, bunu narazılıqla qarşılayırlar. Bu, absurd yanaşmadır. Halbuki, orada doğulan və yenidən ora qayıtmaq istəyən azərbaycanlıların hüquqları təmin olunmalıdır".

**A.Səmədov əlavə edib ki, beynəlxalq qurumlarda qəbul olunmuş qətnamələr həm Qərbi Azərbaycan məsələsini gündəmə gətirmək, həm də tarixi həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırmaq baxımdan mühümdür:**

"Ermənilərə açıq, birmənalı mesajdır. Ermənistan tərəfi hər tədbirdə Qarabağ ermənilərinin "geri dönmək haqqından" danışırsa, unutmasın ki, eyni haqq Ermənistan ərazisindən vəhşicəsinə qovulmuş, yurdları əlindən alınmış azərbaycanlılara da məxsusdur. Qayıdış Azərbaycanın müəyyən etdiyi qaydada baş verə bilər. Yəni qarşılıqlılıq, bərabərlik və fərdi qaydada... Ermənilərin heç bir kollektiv qayıdışından söhbət gedə bilməz".

**İsmayıl**

# Ərdoğan həmişə sözünün ağasıdır

## Tramp Türkiyə kimi "sərbəst oyunçularla" işləməyin yollarını axtarır



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Haaqada NATO sammiti çərçivəsində ABŞ Prezidenti Donald Trampla görüşüb. Prezidentlər arasında danışıqlar mətbuata bağlı qapılar arxasında baş tutub. Görüş zamanı liderlər Türkiyə ilə ABŞ arasında ikitərəfli münasibətləri, regional və qlobal məsələləri müzakirə ediblər.**

Prezident Ərdoğan iki ölkənin müxtəlif sahələrdə, xüsusilə enerji və investisiya sahəsində böyük potensiala malik olduğunu bildirib. O deyib ki, əməkdaşlığın inkişafı, xüsusən də müdafiə sənayesi sahəsində əlaqələr ümumi ticarətin 100 milyard dollarlıq hədəfə çatmağa kömək edəcək. Türkiyənin dövlət başçısı Trampın səyləri nəticəsində İsrail və İran arasında əldə olunan atəşkəs razılaşmasını alqışlayıb. Ərdoğan bunun daimi olmasını arzulayıb. Qəzzada humanitar faciəyə tez bir zamanda son qoyulması və Rusiya ilə Ukrayna arasındakı müharibənin sülh yolu ilə həlli üçün sıx dialoqun vacibliyini vurğulayıb. NATO-nun aparıcı müttəfiqləri kimi iki lider alyansın çəkindirici gücünü gücləndirmək üçün gələcək addımların atılmasının vacibliyini vurğulayıblar.

**Siyasi şərhçi Azər Niftiyev "Şərq"ə açıqlamasında bildirib ki, qlobal miqyasda gərginliyin artdığı, geosiyasi balansın dəyişdiyi və müttəfiqlər arasında etimadın sınaqdan keçirildiyi bir ərəfədə belə bir görüşün baş tutması strateji əhəmiyyət daşıyır. Ekspert qeyd edib ki, Ərdoğan-Tramp görüşü təkcə Türkiyə-ABŞ münasibətlərini deyil, eyni zamanda NATO daxilindəki dinamikanı və regional güclərin yeni mövqelərini müəyyənləşdirməyə yönəlmiş bir təşəbbüs kimi qiymətləndirilə bilər:**

"Nəzərə alsaq ki, Türkiyə və ABŞ münasibətləri son illərdə dəfələrlə sınağa çəkilib, bu xüsusda bu görüşü Türkiyəyə verilən diplomatik önəmin göstəricisi kimi səciyyələndirmək olar. F-35 layihəsindən çıxarılma, S-400 məsələsi, Suriyada kürd silahlı qruplarına ABŞ-nin dəstəyi və digər mövzular bu münasibətləri kövrək hala gətirib. Trampın dövründə Ərdoğanla fərdi münasibətlər daha praqmatik və şəxsi diplomatiyaya əsaslansa da, institusional səviyyədə problemlər qalmaqdadır. Bu görüş, münasibətləri yenidən "dizayn etmək" cəhdi kimi də yozula bilər".

**A.Niftiyev deyib ki, NATO-nun gələcəyi və Türkiyənin mövqeyi baxımından da bu görüş müstəsna əhəmiyyət kəsb edir:**

"NATO daxilində fikir ayrılıqları var, xüsusilə Avropa və ABŞ arasında strateji yanaşmalarda fərqlər müşahidə olunur. Türkiyə isə həm NATO üzvü, həm də Rusiya və digər regional güclərlə əlaqələri balanslaşdıran bir aktor olaraq ittifaqın içində fərqli bir mövqe tutur. Ərdoğan-Tramp görüşü, NATO çərçivəsində Türkiyənin rolunun və gözləntilərinin də müzakirə olunduğu bir platformaya çevrilə bilər. Eyni zamanda Ukrayna müharibəsi, Yaxın Şərqdə gərginlik, Asiyada ABŞ-Çin rəqabəti fonunda Türkiyə kimi regional güclərin hərəkət troyektoriyası dünya siyasətində ciddi əhəmiyyət daşıyır. Ərdoğan-Tramp görüşü "Qərb alyansı daxilində fərqli baxış bucaqlarının koordinasiyası" cəhdidir. Trampın mümkün ikinci prezidentliyi fonunda bu görüş, gələcək münasibətlərin konturlarını da müəyyən edəcək".

Müsahibimiz vurğulayıb ki, Trampın şəxsi keyfiyyətlərinə bələd bir lider kimi Ərdoğan mövcud şərtlər daxilində prosesləri Türkiyənin maraqları kontekstinə uyğunlaşdırmağa çalışır: "Tramp isə NATO və beynəlxalq müttəfiqliyə daha praqmatik baxan siyasətçi kimi, Türkiyə kimi "sərbəst oyunçularla" işləməyin yollarını axtarır".

**İsmayıl Qocayev**

# Qlobal xaosun içində təhlükəsiz liman

## Azərbaycan regionun qan gölünə çevrilmək cəhdlərinin qarşısını alır



**Bu gün dünya siyasi, iqtisadi və sosial baxımdan son dərəcə mürəkkəb və qeyri-müəyyən proseslərin içərisindədir. Qlobal miqyasda güc mərkəzləri arasında rəqabət kəskinləşir, yeni ittifaqlar yaranır, köhnə düzənlər dağılır.**

Qonşu regionlarda davam edən müharibələr, etnik və dini münaqişələr, enerji təhlükəsizliyi üzərindəki gərginliklər və informasiya müharibələri dövlətlərin sabitliyini ciddi təhdid altına alır. Bu cür gərgin və qeyri-sabit beynəlxalq mühitdə sabitlik anlayışı daha öncə heç olmadığı qədər strateji əhəmiyyət daşımağa başlayıb. Azərbaycan isə bu ziddiyyətli və qeyri-müəyyən mənzərə fonunda istisna təşkil edir. Ölkəmiz geosiyasi cəhətdən son dərəcə həssas bir regionda - Cənubi Qafqazda, Avropa ilə Asiyanın kəsişməsində yerləşməsinə baxmayaraq, sabitlik və təhlükəsizlik baxımından nümunəvi mövqe sərgiləyir. Təsadüfi deyil ki, Azərbaycan təkcə daxili sabitliyini qoruyan deyil, həm də regional səviyyədə sabitliyi təmin edən mühüm aktora çevrilib. Ölkənin milli təhlükəsizlik strategiyası, balanslaşdırılmış xarici siyasəti, davamlı sosial-iqtisadi inkişaf kursu və xalq-dövlət birliyi bu uğurun başlıca dayaqlarıdır. Siyasi şərhçilərə görə, Azərbaycanın sabitlik modeli bir neçə mühüm amilə əsaslanır. İlk növbədə, ölkədə formalaşmış güclü dövlətçilik ənənəsi və siyasi iradə, vətəndaş həmrəyliyi və milli maraqlar ətrafında cəmlənmiş ictimai konsensus sabitliyin daxili sütunlarını təşkil edir. Eyni zamanda, Azərbaycanın regionda dayanıqlı əməkdaşlıq və qarşılıqlı hörmət prinsipinə əsaslanan münasibətlər qurması, qlobal enerji və nəqliyyat layihələrində etibarlı tərəfdaş kimi çıxış etməsi ölkəmizin beynəlxalq nüfuzunu gücləndirir. Azərbaycan təkcə öz ərazisində deyil, daha geniş coğrafiyada sabitlik, təhlükəsizlik və əməkdaşlıq mühitinin formalaşmasında aparıcı rola malikdir. Müasir dövrdə dövlətlərin uğuru yalnız iqtisadi göstəricilərlə deyil, həm də sabit və təhlükəsiz mühit yaratmaqla ölçülür. Azərbaycan isə bu baxımdan həm regional, həm də beynəlxalq miqyasda etibarlı tərəfdaş, sülh və inkişaf məkanı kimi dəyərləndirilir.

**Millət vəkili Azər Badamov "Şərq"ə deyib ki, Azərbaycan dünyada təhlükəsiz liman rolunda çıxış edir. Deputat diqqətə çatdırıb ki, anarxiya, parçalanmış sivilizasiyalar, cəmiyyətlərin ənənəvi dəyərlərini yerlə yeksan edən ideologiyalar, fəlakətli müharibələr beynəlxalq münasibətlər sistemini son dərəcə mürəkkəb edir:**

"Bu mürəkkəblik fonunda bəşəriyyət çox ağır sınaqlarla üz-üzədir. Mənzərə ağılları alt-üst edir və sanki bizi "xaotik dövr"ə daha sürətlə sürükləyir. Mövcud ssenarini zamanında görən cənab Prezident İlham Əliyevin "Dünyanı beynəlxalq hüququn norma və prinsipləri deyil, güc idarə edir" fikri bu gün bir daha öz təsdiqini tapır. Bu reallığı vaxtında və aydın dərk edən dövlət başçımız Azərbaycanın hərtərəfli inkişaf konsepsiyasını ötən dövr ərzində uğurla icra etdi. Ordu quruculuğu, dayanıqlı iqtisadi inkişaf, xalq və iqtidar birliyi, ideoloji müstəvidə vətənpərvər ruhlu nəslin yetişdirilməsi, beynəlxalq əməkdaşlıq baxımından etibarlı dostluqların qurulması cənab Prezident İlham Əliyevin illərə söykənən gərgin əməyinin nəticəsi oldu. İllərlə Azərbaycana "Münaqişənin hərbi həll variantı mövcud deyil" deyən aktorlar dünyanın başqa regionlarında haqq savaşına başladılar. Dövlət başçımızın da bildirdiyi kimi, ədalət məfhumunun cəmiyyətimizə fərqli aşılanması artıq ən təhlükəli məqam idi".

A.Badamov qeyd edib ki, bütün bunlara baxmayaraq, Azərbaycan xalqı əzmkarlıq və rəşadət göstərdi, torpaqlarını düşmən tapdağından azad etdi: "Lakin qələbəni qazanmaqdan daha çox onu qoruyub saxlamaq daha vacib amildir. Bunu dərk edən xalqımız yenə də birlik nümayiş etdirdi. Bunu gözü götürməyən qüvvələrin ilə ilə ötən dövr ərzində Azərbaycanın xarici, hətta daxili siyasətində təhdid və təzyiqlərin də şahidi olduq. Bu işdə ən ali məqam odur ki, xalq öz rəhbərinin ətrafında ətdən sipər hörüb. Çünki qədirbilən xalqımız dünyada baş verən hadisələri aydın dərk edərək bu cür kataklizmlər fonunda ölkəmizi dimdik ayaqda saxlayan Liderin məhz cənab İlham Əliyev olduğunu bilir. Aydın məsələdir ki, Ukrayna-Rusiya müharibəsi başladıqdan sonra Cənubi Qafqazda ikinci cəbhə açılması istiqamətində sonsuz cəhdlər oldu. Məhz Azərbaycanın yürütdüyü siyasət sadəcə ölkəmizi deyil, bütövlükdə regionumuzu qan gölünə çevirmək cəhdlərinin qarşısını aldı".

**Parlamentari qeyd edib ki, dünyanın müxtəlif regionlarında keçirilən seçkilərə müdaxilə cəhdləri, icra olunan böyük infrastruktur layihələrinə vurulan zərbələr, hərbi və iqtisadi əməkdaşlıqların pozulması, enerji təhlükəsizliyinin təmin olunmasının son dərəcə kritik duruma çatması fonunda Azərbaycan balanslı siyasət icra edir:**

"Ukrayna-Rusiya müharibəsinin nəticəsizliyi, İran-ABŞ-İsrail müharibəsində hələ də tam qalibin olmaması ondan xəbər verir ki, dünya nizamının bölüşdürülməsi planında yekun qərar hələ də mövcud deyil. Lakin bir reallıq özünü göstərir ki, bu da İkinci Dünya müharibəsindən sonra heç bir aktor Azərbaycan qədər tam və inamlı qələbə əldə etməyib. Bu gün əminliklə və qürurla deyə bilirik ki, cənab Prezident İlham Əliyevin yürütdüyü siyasət nəticəsində ölkəmiz dünyada etibarlı tərəfdaş, təhlükəsiz liman rolunda çıxış edir. Bu limanda daha qəti lövbər salmaq işinin müəllifi Müzəffər Ali Baş Komandanımızdır".

**İsmayıl Qocayev**



# Daha təmiz, daha etibarlı enerji infrastrukturu formalaşdı

## Azərbaycanın ən ekoloji enerji obyekti işə düşdü

**Postmüharibə mərhələsinin önəmli hadisələrindən biri də Azərbaycanda həm ənənəvi enerji mənbələrindən istifadənin səmərəliliyinin artırılması, həm də bərpaolunan enerji sahəsində bir sıra önəmli layihələrin reallaşdırılmasına geniş vüsətin verilməsidir.**

Bu baxımdan 2025-ci il iyunun 24-də Mingəçevirdə "8 noyabr" Elektrik Stansiyasının açılışı Azərbaycanın enerji sektorundakı mühüm hadisələrdən biridir. Stansiyanın tikintisində İtaliyanın "Ansaldo Energia" və Çinin "Dongfang" şirkətləri ilə yanaşı, yerli ixtisaslaşmış "BCC Group" da iştirak edib. Bu baxımdan "8 Noyabr" Elektrik Stansiyasını enerjinin gələcəyi ilə bağlı Azərbaycan-İtaliya-Çinin ortaq baxışı kimi dəyərləndirmək olar. Prezident İlham Əliyev İtaliya və Çin şirkətlərinin bu layihədə iştirakını ölkələrimiz arasında uğurlu əməkdaşlığın göstəricisi kimi dəyərləndirib. Eyni zamanda bir sıra vacib məqamlara toxunub və bildirib ki, 1880 meqavat gücündə olan bu stansiya bizim enerji potensialımızı daha da gücləndirəcək, enerji sisteminin səmərəliliyini artıracaq. Beləliklə, Mingəçevirin nəinki Azərbaycanın, bütövlükdə Cənubi Qafqazın energetika mərkəzi olan statusunu daha da gücləndirəcək. Hazırda bizim elektrik enerjisinin 40 faizindən çoxu Mingəçevirdə istehsal olunur. "8 Noyabr" Stansiyasının istismara verilməsi ilə generasiya gücümüz artacaq. Eyni zamanda, şərti yanacaq sərfiyyatı kəskin aşağı düşəcək və bu, bizə təbii qaza qənaət etmək üçün imkan yaradacaq. Şərti yanacağın sərfiyyatının az olması bizə əlavə qazanc gətirəcək. İmzalanmış, icra edilən və icra ediləcək bərpaolunan enerji layihələri 2030-cu ilə qədər bizə 6500 meqavat yaşıl enerji verəcək. Əgər bu gün bizim ümumi generasiya gücümüz 9000 meqavatdırsa, bunun nə dərəcədə əhəmiyyət kəsb etdiyini hər kəs başa düşə bilər.

**"8 noyabr" Elektrik Stansiyası Azərbaycanda ən böyük və ən strateji obyektlərdən biri olacaq**

**Millət vəkili Əli Məsimli deyib ki, "8 noyabr" Elektrik Stansiyası Azərbaycanda ən böyük və ən strateji obyektlərdən biri olmaqla, ölkəmizdə enerji infrastrukturunu modernləşdirmək, daha təmiz, daha etibarlı və daha səmərəli texnologiyalar tətbiq etmək istiqamətində kompleks yanaşmanın bariz nümunəsidir. Deputatın sözlərinə görə, bu stansiyanın istifadəyə verilməsi ölkəmizdə enerji dayanıqlığının təmin edilməsi, artan tələbatın qarşılanması, enerji təhlükəsizliyinin gücləndirilməsi, daxili tələbatın qarşılanması ilə yanaşı, həm də ixrac imkanlarının artırılması, təbii qaza qənaət edilməsi, ətraf mühitin qorunması baxımından mühüm əhəmiyyət kəsb edir:**

"Bu stansiyada tətbiq olunan ən son texnoloji həllər və dünyanın aparıcı enerji istehsalı avadanlıqları sayəsində 1 kvts elektrik istehsalına şərti yanacaq sərfiyyatının 120 qram azaltmaqla 345 qramdan 225 qrama enməsinə imkan verir. Bu, ildə 1 milyard kubmetr qaza qənaət edilməsinə gətirib çıxaracaq. Elektrik Stansiyasının Faydalı İş Əmsalı 17 faiz artmaqla 38,5 faizdən 55,5 faizə qalxacaq. 2 milyon ton karbon qazının atmosferə atılmasının qarşısı alınacaq. Keçmişlə müqayisədə bu, havaya atılmaları 50 faiz azaldacaq. Bu baxımdan "8 Noyabr" Elektrik Stansiyası həm ekoloji, həm də iqtisadi səmərəliliyi ilə seçilən nümunəvi enerji layihəsi hesab olunur. Bu, etibarlı enerji təminatında mühüm rol oynayacaq. Layihənin qısa müddət ərzində ərsəyə gəlməsi Azərbaycanın artan güc tələbatının qarşılanması, yaradılan böyük gücdə bərpaolunan enerji mənbələrinin enerjisistemə inteqrasiyasının balanslaşdırılması, enerjisistemin dayanıqlılığının təmin olunması baxımından səmərəli həll kimi ölkəmizin inkişafına xidmət edəcək. Bu layihənin uğurla reallaşdırılması strateji addım olduğundan, digər sənaye və istehsal sektorlarının da inkişafına müsbət təsir edəcək".

**İsmayıl**

# Putin Trampın mövqeyindən məmnundur

## Kreml sahibi İrana görə Trampla münasibətləri korlamayacaq

**İranın xarici işlər naziri Abbas Araqçi Kremldə Rusiya Prezidenti Vladimir Putinlə yaxşı görüş keçirdiyini bildirib. Görüş zamanı nazir Rusiya liderinə İsrail və ABŞ-nin hücumları barədə ətraflı danışıb.**




Araqçi vurğulayıb ki, region, beynəlxalq ictimaiyyət və nüvə silahlarının yayılmaması ümumi narahatlıqdır: "Rusiya da bütün bunlardan narahatdır. Bütün beynəlxalq məsələlərdə biz sıx əməkdaşlıq etdik və bir-birimizin mövqeyini dəstəklədik".

**Politoloq Elxan Şahinoğlu deyib ki, İranın xarici işlər naziri Abbas Araqçi ölkəsinin ali dini lideri Əli Xamaneyinin məktubunu da Rusiya Prezidenti Vladimir Putinə təqdim edib. Məktubun mətni açıqlanmasa da, aydındır ki, Əli Xamaneyi Putindən İrana dəstəyin artırılmasını istəyib:**

"Tehranın Moskvadan bir neçə gözləntisi var. Birincisi, Tehran Rusiyanın beynəlxalq təşkilatlarda ABŞ və İsrailə qarşı təzyiqini artıracağına ümid edir. İkincisi, Tehran yanvarda iki ölkə arasında imzalanan strateji tərəfdaşlıq çərçivəsində Rusiyanın İrana hərbi dəstəyini artırmasını istəyir. Tehranın Rusiyadan olan gözləntilərinin reallaşması problematikdir. Əlbəttə, Rusiya Çinlə birlikdə BMT-də ABŞ və İsrailin İrana qarşı hücumlarını dayandırmaq üçün müxtəlif təşəbbüslər irəli sürəcək. Ancaq Kreml bundan artığını İran üçün etməyəcək. Rusiya ABŞ və İsraillə savaşmaq üçün İrana raketlər və digər hərbi texnika verməyəcək. Birincisi, ABŞ və İsrail həmin texnikanı İrana çatdırılma yolunda vuracaq. Digər tərəfdən Vladimir Putin amerikalı həmkarı Donald Trampla Ukrayna mövzusunda dialoq içindədirlər. Putin Trampın mövqeyindən məmnundur. Ona görə də Kreml sahibi İrana görə Trampla münasibətləri korlamayacaq".

**İsmayıl**



İsrail İranın Mərkəzi Bankını terror təşkilatı kimi tanıyıb. İsrail müdafiə naziri İsrail Katz X hesabında bildirib ki, İranın Mərkəzi Bankını terror qruplaşmalarına milyardların ötürülməsində ittiham edib. Nazir əlavə edib ki, İsrail İranın "şər şəbəkəsi"ni ifşa edərək məhv edəcək.

### "Ağır məğlubiyyətə rəğmən rejim özünü qoruya bildi"

Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə deyib ki, İran-İsrail müharibəsində Trampın təkidi ilə əldə olunan atəşkəs ətrafında açıq qalan məqamlar çoxdur.

# İran üçün "böyük yaxşılıq"

## Trampın təkidi ilə əldə olunan atəşkəs ətrafında açıq qalan məqamlar çoxdur

**"İsrail İranın nüvə obyektlərinin tamamilə məhv edilməsi ilə bağlı hesabat dərc etməyə hazırlaşır". Bunu ABŞ Prezidenti Donald Tramp deyib. Tramp bildirib ki, zərbələrdən sonra İsrailin adamları Fordoda oldu: "Və oranın tamamilə məhv olduğunu deyirlər".**

Qeyd edək ki, 22 iyunda ABŞ İranın nüvə obyektlərinə zərbələr endirib. MAQATE-nin portalında dərc edilmiş bəyanatda deyilib ki, Atom Enerjisi üzrə Beynəlxalq Agentlik (MAQATE) İran və İsrail arasında elan edilən atəşkəsdən əvvəl həyata keçirilən hücumlardan sonra Fordo və Natanzdakı İran nüvə obyektlərində yeni zədələnmələr qeydə alıb. Məlumatda qeyd olunub ki, ABŞ-nin iyunun 22-də obyekti bombardman etməsindən sonra MAQATE müəyyən edib ki, yeraltı obyektin yaxınlığındakı yollar və girişlərdən biri zərər görüb.

### Trampın atəşkəs qərarı komandasını da təəccübləndirib

ABŞ Prezidenti Donald Tramp atəşkəs rejiminin pozulması ilə bağlı İsrailə müraciət edib. Tramp bu barədə özünün "Truth Social" səhifəsində yazıb: "Bu bombaları atmayın. Bu, ciddi pozuntu olacaq. Pilotlarınızı dərhal evə qaytarın".

ABŞ Prezidenti Donald Tramp deyib ki, Rusiya Prezidenti Vladimir Putin İran-İsrail münaqişəsinin həlli üçün yardım təklif etmişdi. Trampın sözlərinə görə, Putin özü ona zəng edib və kömək təklif edib: "Bildiyiniz kimi, Vladimir mənə zəng etdi. O soruşdu: "İranla bağlı sizə kömək edə bilərəmmi?" Dedim: "Xeyr, İranla bağlı köməyə ehtiyacım yoxdur. Sizinlə bağlı köməyə ehtiyacım var". Və ümid edirəm ki, Rusiya ilə razılaşacağıq. Çox təəssüf ki, ötən həftə 6 min əsgər həlak olub".

ABŞ Prezidenti Donald Tramp dünən İsrail Baş naziri Benyamin Netanyahuya zəng edərək, atəşkəsi pozmasına görə İrana zərbəni dayandırmasını istəyib. Netanyahu Trampa zərbəni dayandıra bilməyəcəyini və İranın atəşkəsi pozmasına bir növ cavab lazım olduğunu deyib. Nəticədə zərbəni əhəmiyyətli dərəcədə azaltmaq, bir çox hədəfə hücumu ləğv etmək və yalnız bir hədəfi vurmaq üçün qərar qəbul edilib".

### "Netanyahu özü ilə fəxr edə bilər" - Tramp

ABŞ Prezidenti Donald Tramp deyib ki, İran ballistik raketlərlə İsrailə ciddi ziyan vurub: "İsrail xüsusilə son bir neçə gündə İranın ballistik raketlərindən çox pis zərər çəkdi. Çoxlu binalar dağıdılıb". Onun sözlərinə görə, bununla yanaşı, İsrail bu silahlı münaqişədə özünü çox yaxşı göstərdi: "İsrail Baş naziri Benyamin Netanyahu özü ilə fəxr edə bilər".

### İsrail məqsədlərinə çatmadı, İran da "nüvə dövləti" statusunu saxladı

ABŞ Prezidenti Donald Tramp gözlənilmədən İsrail və İran arasında atəşkəs elan etməsi hətta öz administrasiyasının yüksək rütbəli üzvləri üçün də sürpriz olub. Açıqlamadan bir neçə saat əvvəl Tramp İsrail Baş naziri Benyamin Netanyahu və İran rəsmiləri ilə danışıqlar aparıb, Qətər əmiri Təmim bin Həməd əs-Sani vasitəçi qismində çıxış edib. Bu, hətta Tramp administrasiyasının bəzi yüksək vəzifəli rəsmilərini də təəccübləndirib. Danışıqlarda ABŞ-nin vitse-prezidenti Ceym Devid Vens, Dövlət katibi Marko Rubio və xüsusi nümayəndə Stiv Uitkoff iştirak ediblər.

### Ərdoğandan İran və İsrailə çağırış...

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib ki, Türkiyə İran və İsrail arasında əldə olunmuş atəşkəs razılaşmasına ciddi şəkildə əməl olunmasına çağırır.

Onun sözlərinə görə, münaqişələrin həlli üçün yeganə düzgün və rasional yol diplomatiyadır: "İyunun 13-dən etibarən bölgədə gərginliyin artması müşahidə olunur. Türkiyə bu hadisələrin ilk saatlarından etibarən dialoqa çağırış edib. Bu gün atəşkəs razılaşmasını alqışlayırıq". Ərdoğan ölkənin müdafiə potensialının daha da gücləndirilməsinin əhəmiyyətini xüsusi qeyd edib: "Biz yerli hərbi-sənaye kompleksimizə xüsusi önəm veririk".

Ekspertin sözlərinə görə, atəşkəsin Trampın istəyi ilə məcburi şəkildə olduğu görünsə də, bunu İran üçün "böyük yaxşılıq" kimi qiymətləndirmək olar: "Ağır məğlubiyyətə rəğmən rejim özünü qoruya bildi. Hətta ABŞ-yə qarşı müharibə macərasında dirənə biləcəyini nümayiş etdirməklə "qələbə" təbliğatı üçün ciddi əsaslar da qazandı. İsrail yekun hədəflərinə nail olmasa da, İranın nüvə və hərbi potensialını uzun perspektivdə zəiflədə bildi. Eyni zamanda, ABŞ-ni müharibəyə cəlb etməklə təhlükəsizlik qalxanını gücləndirdi. Tramp İrana hücumla ata biləcəyi addımların və İsrailə dəstəyinin ritorikadan ibarət olmadığını göstərdi. Müharibənin arealı genişlənmədən atəşkəslə qısa müddətdə uğurlu nəticə əldə etdiyini sərgilədi. İranda əsas hədəfə - nüvə potensialının tam məhv edilməsinə nail olunduğu isə müəmma olaraq qalır. Tramp və Netanyahu İranın "artıq nüvə dövləti" olmadığını, bu potensialın tamamilə məhv edildiyini deyir, rəsmi Tehran əksini. Beynəlxalq mediada yayılan informasiyaların müqayisəsi, eləcə də MAQATE-nin açıqlamaları və iranlı rəsmilərin "nüvə proqramından imtina etmədiklərinə dair" dedikləri "nüvə potensialının" tam sıradan çıxarılmadığı fikrini gücləndirir".

### "İran rejiminin nüvə proqramından imtina etməyəcəyi..."

A.Nərimanlı vurğulayıb ki, hədəf seçilən nüvə obyektlərindən zənginləşdirilmiş uranın ən az bir qisminin çıxarıldığı versiyası hələ də gündəmdədir: "MAQATE mütəxəssisləri istehsal olunan nüvə materialı və 60 faizə qədər uranın yerini bilinmədiyini deyir. Pentaqonun mediaya sızan qiymətləndirməsində ABŞ-nin zərbələrinin "nüvə proqramını" tamamilə məhv etmədiyi, "yalnız bir neçə ay gecikdirdiyi" qeyd olunur. Ən əsası bu müharibədə İran rejimi anladı ki, "nüvə silahı" olmadan təhlükəsizliyin təmin edilməsi mümkün deyil. Xüsusilə "müttəfiqsiz" qalmaları fonunda: bu reallıq İran xalqı tərəfindən də dəstəklənə bilər. Nəticə etibarilə, İran rejiminin nüvə proqramından imtina etməyəcəyi və "dinc nüvə" adı altında bu hədəfinə doğru müxtəlif formalarda irəliləyəcəyi aydın görünür. Bunu dayandırmağın müharibə ilə mümkün olmadığı, yaxud şərtlərin yetişməməsi fonunda iki mümkün variant ola bilər".

İsmayıl

# Pul var, amma güvən yoxdur

## Azərbaycanda banklara inam çöküb

**Azərbaycan bank sektorunda müddətli əmanət yerləşdirən unikal müştərilərin (FİN üzrə) sayı artmaqda davam edir. Mərkəzi Bankın statistik bülletenində qeyd edilib ki, 2023-cü ilin sonuna bu göstərici 106 723 nəfər təşkil etdiyi halda, 2025-ci ilin may ayının sonuna bu rəqəm 165 061 nəfərə yüksəlib.**



Beləliklə, bir il yarım ərzində unikal müddətli əmanətçilərin sayı 55 faiz artım göstərib. Qeyd edək ki, burada unikal əmanətçi dedikdə banka müddətli pul yerləşdirən fiziki şəxslər nəzərdə tutulur.

2024-cü ilin ilk yarısında bu göstərici 130 min nəfərə çatmış, ilin sonunda isə 150 min nəfəri keçmişdi. 2025-ci ilin ilk beş ayı ərzində də artım davam edib. Yanvar ayında 154 181 nəfər olan əmanətçi sayı, mayda 165 min nəfəri ötüb. Bu, ilin əvvəlindən bəri 7 faizə yaxın artım deməkdir.

Qeyd edək ki, banklarda fiziki şəxslərin ümumilikdə 14.734 mlrd. manat əmanətlərinin 9.198 mlrd. manatı müddətli, qalan 5.536 mlrd. manatı isə tələbli depozitlər olub.

Unikal əmanətçilərin sayının artmasına gəlincə, mütəxəssislər bunun bir neçə əsas səbəbi olduğunu vurğulayıb. Pul siyasətinin təkmilləşdirilməsi, vergi güzəştlərinin tətbiqi və əmanətlərin sığortalanması bu dinamikanı şərtləndirən amillərdən hesab olunur. Qeyd edilib ki, bu müsbət dinamika ölkədə maliyyə inklüzivliyinin genişləndirilməsinə, bank sektorunun stabil inkişafına və iqtisadiyyatda vəsaitlərin daha effektiv dövriyyəsinə töhfə verir.

### SSRİ-dən miras qalan qorxu hələ də yaşayır

**İqtisadçı-ekspert Natiq Cəfərli "Şərq"ə açıqlamasında deyib ki, Azərbaycanda unikal əmanətçilərin sayı sürətlə artsa da, onların sayı hələ də azdır. Ekspertin sözlərinə görə, əhali nisbətinə görə Türkiyə, Gürcüstan və Rusiyadan çox geri qalırıq:**

"Son 35 illik tarixə baxsaq, zaman-zaman əmanətçilərin bank sektroru ilə problemlər yaşadığını görərik. SSRİ-nin dağılmasından sonra dövlət banklarında böyük məbləğdə vəsaitin batması, eləcə də 2015-də baş verən devalvasiyalardan sonra çoxlu sayda bankın lisenziyasının ləğv edilməsi insanlarda bank sisteminə olan güvəni zəiflədib. Az əmanətçinin olmasının digər səbəbi Azərbaycan əhalisinin daha çox daşınmaz əmlaka investisiya etməsidir. Əhalinin yığım imkanı olan hissəsi Azərbaycanda, Türkiyədə və Gürcüstanda evlər və obyektlər alırlar. Digər səbəb isə əhalinin çox hissəsinin gəlirinin aşağı olmasıdır. Orta statistik azərbaycanlının həm özünü təmin etməsi, həm də pul yığıb banka qoyması çətindir".

Şəymən

# Cəmiyyət sertifikasiya imtahanını dəstəkləməlidir

## Adı müəllim olan hər bir şəxs öz ixtisası üzrə 50 faizdən aşağı nəticə göstərməməlidir



### "Bu imtahan illərlə bizim balalarımıza dərs keçən müəllimlərin savad səviyyəsini ortaya qoydu"

**Müəllimlərin sertifikatlaşdırma prosesi geniş müzakirələrə səbəb olub.**

Xüsusilə Azərbaycan dili və ədəbiyyat müəllimləri arasında yaranan narazılıqlar ictimaiyyətin diqqət mərkəzindədir. Elm və təhsil naziri Emin Əmrullayev məsələyə münasibət bildirərək, sertifikatlaşdırma nəticələrinin təhlili və apellyasiya müraciətlərinin ədalətli şəkildə qiymətləndirilməsi barədə açıqlama verib. Nazir imtahanlarda sual çətinliyi və testlərin obyektivliyinə dair məsələlərə aydınlıq gətirərək, nazirliyin müəllimlərin yanında olduğunu vurğulayıb, sertifikatlaşdırmadan sonra bütün apellyasiya müraciətlərinə baxılacağını qeyd edib: "Əgər təhlillər zamanı ciddi fərqlərin olduğunu görsək, müəyyən qərarlar verə bilərik. Xahişim odur ki, müəllimlər səbirli olsunlar. Bilsinlər ki, Elm və Təhsil Nazirliyi onların yanındadır. Biz ədalətsiz qərar vermirik".

**Nazir əlavə edib ki, imtahanlarla bağlı hər zaman sual çətinliyi məsələsi gündəmə gəlir:**

"Amma sualların nə dərəcədə çətin olduğunu müəyyən etmək üçün ayrı-ayrı fikirlərə yox, bu çətinliyi ölçən rəsmi cədvəllərə baxmaq lazımdır. Cəmiyyətin başa düşməli olduğu əsas məqamlardan biri də budur ki, biz müxtəlif illərdə fərqli testlər təqdim edirik. Təbii olaraq, testlər eyni olmadığından çətinlik səviyyəsində müəyyən fərqlər ola bilər. Sual isə budur: bu çətinlik fərqi nəticələrə təsir edəcək qədər əhəmiyyətlidirmi, ya yox? Bu kimi suallar bizə də çatır, eşidirik, bilirik".

**Emin Əmrullayev bildirib ki, hazırda testlərin təkrar yoxlanılması prosesi aparılır:**

"Mənim yanaşmam belədir ki, bu, nazirlik üçün yüklü, amma müsbət və vacib bir prosesdir. Məqsəd kiminsə nəticəsini dəyişmək və ya əlavə bal yazmaq deyil. Məqsəd obyektiv təhlildir. Əgər aparılan təhlillər nəticəsində bəzi testlər arasında ciddi çətinlik fərqlərinin olduğu müəyyənləşərsə, o zaman müvafiq qərarlar veriləbilər".

İxtisasının filologiya (Azərbaycan dili və ədəbiyyatı) olduğunu vurğulayan təhsil eksperti Ramin Nurəliyev isə "Şərq"ə açıqlamasında deyib ki, sertifikasiya imtahanını cəmiyyətin bütün üzvləri dəstəkləməlidir: "Bu imtahan illərlə bizim balalarımıza dərs keçən müəllimlərin savad səviyyəsini ortaya qoydu. Adı müəllim olan hər bir şəxs öz ixtisası üzrə 50 faizdən aşağı nəticə göstərməməlidir. Göstərirsə, bu onun müəllim kimi formalaşmadığını ortaya qoyur. Təkrar üzərində işləməli və MİQ imtahanında özünü sübut etməlidir. Bildiyiniz kimi, hər bir fənn üzrə sertifikasiya imtahanından sonra bir qisim müəllimlərin suallara və imtahanı təşkil edənlərə açıq mübarizəsi əks olunur. Filoloqların imtahanından sonra da eyni etiraz dalğası hökm sürdü. Ümumi vəziyyəti analiz etmək üçün konkret fikir bildirmədim. Ani qərar vermeyin doğru olmadığını düşündüm. Analiz etdim və müşahidələrimə əsasən filoloqların imtahanında mətn sayının çoxluğu və buna verilən vaxtın yetərsiz olduğu qənaətinə gəldim. Bununla yanaşı, sertifikasiya imtahanında fənlərin birinin digərinə nisbətdə çətin, yaxud da asan olması qəbuledilməzdir. Düşünürəm və təklif edirəm ki, filoloqların sertifikasiya imtahanı təkrar keçirilsin, yaxud da, bəzi suallar ləğv olunaraq iştirakçılara həmin sualların balı əlavə olunsun".

Şəymən bayramova

# Səsin də bir sərhədi olmalıdır

## Elza Seyidcahanın metroda çıxışı müzakirə mövzusu oldu

**Böyük Britaniyada təhsil alan azərbaycanlı tələbələr maraqlı fləşmoba imza atıblar. Gənclər London metrosunda bir stansiyadan digərinə keçidlər edərkən Azərbaycan xalq mahnılarını səsləndiriblər. Tələbələrin fləş-mobu sosial şəbəkələrdə yayılıb. Bəyənənlər çox olub.**

Xüsusi nəzərə çarpansa budur ki, belə bir davranış sərnişinlər tərəfindən də maraqla və xoş qarşılanır. Bunu sərnişinlərin üzündəki təbəssümdən görmək mümkündür.

Oxşar hal Bakı Metropolitenində də yaşanıb. Amma bir qədər fərqli formada. Çünki bunu edən də hamıdan, hər kəsdən fərqlənməyə çalışan və nail də olan müğənni-bəstəkar Elza Seydcahandır. Xanım müğənni əlində mikrofon düşüb metronun "canına", vaqonda o baş bu başa var-gəl edə-edə uca səslə mahnı ifa edib. Müşayiət edənləri də olub. Bu video da sosial platformada yayılıb. Lakin metro sərnişinlərinin qırımından görünür ki, Elza xanımın "konserti"ndən heç də xoş hal-filan deyillər. Yəqin, ifanı başa düşməyiblər. Elza xanım çətin, sirli-müəmmalı, "futurist" ifaçıdır axı!..

Məsələ kiminsə ictimai yerdə mahnı ifa etməsində deyil. Paytaxtda küçə musiqiçiləri dəbi çoxdan var. Vaxtaşırı gənclərı də, yaşlı insanları da səkidə, yeraltı keçidlərdə hansısa musiqi alətində ifa edən görürük. Amma bu yerlər açıq məkanlardır. İnsanlar ötüb keçir, bəyənən dayanıb qulaq asır, üstəlik, nəmər də verir. Məsələ ictimai nəqliyyatdırsa, vəziyyət dəyişir. Elza xanımın ifasına qulaq asmaq istəməyən varsa, neyləməlidir? Gedəcəyi ünvana çatmamış vaqonu vaxtından əvvəl tərk etməlidir? Belə bir "konsertə" icazə verənlər Elza Seyidcahanın ifasının sərnişinləri narahat edə biləcəyini də düşünməli idi. Metropoliten çəkilişlərə, kamera görüntülərinin alınmasına və həmçinin ucadan danışığın, səs-küyün olmasına qadağa qoyulmuş nəqliyyat növüdür. Deməli, rəhbərlik Elza Seyidcahana metro vaqonunu seyrəngah edib mahnı səsləndirməsinə icazə verib.



### Psixoloq Fərqanə Mehmanqızı sərnişinlərin sükut haqqını müdafiə etdi

**Psixoloq Fərqanə Mehmanqızı "Şərq"ə açıqlamasında qeyd etdi ki, şəhərdə səs-küyün zatən geniş yayıldığı bir vaxtda insanların sakitliyini əlavə vasitələrlə pozmaq, sərnişinləri narahat etmək etik normalara sığmır:**

- Bəzən görürük ki, avtobus, taksi sürücüsü hansısa mahnı səsləndirir, sərnişinsə buna etiraz edir. Sərnişin haqlıdır, sürücü ictimai nəqliyyat idarə edirsə, sərnişinin - ictimaiyyətin fikrini, mövqeyini öyrənməli, buna müvafiq hərəkət etməlidir. Biri meyxanaya qulaq asır, biri estrada mahnısına, birisi jarqonlara dolu ara, küçə mahnılarına. Sərnişin bunları dinləmək zorundadır? Xeyr. İnsanlar sakitlik, rahatlıq istəyir. Zatən, həyat şərtləri ağırdır. Hər tərəfdə stress, həyəcan, səs-küy. Bir tərəfdən kiminsə musiqinin səsini ucaltması insanları qıcıqlandırır. Şəxsi avtomobilində kim hansı musiqiyə istəsə, qulaq asa bilər, kimsə də ona irad bildirə bilməz. Amma bu musiqi avtomobilin pəncərəsindən küçəyə axırsa, artıq ətrafdakı insanları narahat edə bilər. Məncə, yol polisi bu cür halları qayda pozuntusu hesab edir və belə sürücülər inzibati qaydada cəzalanırlar. Bu, avtobus, taksi sürücülərinə, o cümlədən şadlıq evlərinə, restoranlara, insanlara da aiddir. Restoran sahibləri musiqinin səsini icazə verilən həddə qədər ucalda bilər. Adi insanlar da ətrafdakılara qarşı həssas və hörmətlə davranmalıdırlar. Mənzildə musiqi səsləndirən şəxs bunun digər insanları, qonşuları narahat edə biləcəyini düşünməlidir. Biz mədəni bir ölkədə, dünyaya örnək ola biləcək paytaxt şəhər sakinləriyiksə, etik davranış normalarını da bilməli və riayət etməliyik.

**"Biz mədəni bir ölkədə, dünyaya örnək ola biləcək paytaxt şəhər sakinləriyiksə, etik davranış normalarını da bilməli və riayət etməliyik"**

**Elza Seyidcahanın metroda "konsert" verməsinə gəlincə, psixoloq, bəlkə də, müğənninin Londonadakı azərbaycanlı gənclərdən nümunə götürdüyünü, lakin bunun o qədər də yerinə düşmədiyini dedi:**

- Londonda gənclərimiz belə bir fləşmob keçiribsə, bu, ölkəmizin, mədəniyyətimizin tanıdılması məqsədi daşıyır, Elza xanım isə özünü tanıtmağa çalışır, hərçənd buna onun ehtiyacı yoxdur. Sadəcə, fərqlənməyə çalışıb.

Məlahət Rzayeva

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

# Gəncədən Cenevrəyə

## Azərbaycan qadını dünya diplomatiyasının önündədir






**24 İyun tarixi dünyada diplomatiyada qadınların rolunu tanımaq və onların beynəlxalq münasibətlərdəki töhfələrini önə çəkmək məqsədilə Diplomatiyada Qadınların Beynəlxalq Günü kimi qeyd olunur. Bu tarix təkcə qadın diplomatların say artımını deyil, həm də onların sülh quruculuğu, konfliktlərin həlli, qlobal əməkdaşlıq və davamlı inkişaf sahələrindəki əvəzsiz rolunu vurğulamaq üçün bir fürsətdir. Uzun illər kişilərin dominant olduğu bu sahədə qadınların artan iştirakı, diplomatiyanın daha inklüziv, empatiya əsaslı və dayanıqlı yanaşmalarla inkişafına yol açır.**

BMT-nin Baş Assambleyası bu günün təsis olunması ilə bağlı Azərbaycanın da həmmüəllif olduğu qətnaməni 2022-ci il iyunun 22-də qəbul edib. Məqsəd qadınların diplomatiya sahəsinə verdiyi önəmli töhfələri vurğulamaq və qərarvermənin bütün səviyyələrində qadınların daha fəal iştirakını təşviq etməkdir. Bu, ölkəmizdə diplomatiya sahəsində qadınların fəaliyyətinin rəsmi təsdiqidir.

Qadınlar əsrlər boyu diplomatiyada iştirak ediblər, lakin onların töhfələri çox vaxt diqqətdən kənarda qalıb. Zərif cinsin nümayəndələri dünya əhalisinin 50 faizdən çoxunu və deməli, potensialının da yarısını təşkil edir. Qadınlar diplomatiyaya böyük fayda gətirir. Onların liderlik üslubları, təcrübələri və prioritetləri nəzərdən keçirilən məsələlərin əhatə dairəsini və nəticələrin keyfiyyətini genişləndirir.

Azərbaycan diplomatiyasında qadınların iştirakı təkcə son illərin deyil, qədim dövründən miras qalan bir ənənənin davamı kimi qiymətləndirilə bilər.

Ağqoyunlu sülaləsinin hökmdarı Uzun Həsənin anası Sara Xatunun adı təkcə Azərbaycanın deyil, bütün Şərqin dövlətçilik tarixinə ilk xanım diplomat kimi yazılıb. Onun dərin ağlı, mətanəti, müdrikliyi və cəsarəti dillərə dastan olub. Sara Xatun Ağqoyunlu dövlətinin idarə olunmasında yaxından iştirak edərək dövlətin möhkəmlənməsində, xarici ölkələrlə diplomatik əlaqələrin qurulmasında böyük rol oynayıb. Oğlu Uzun Həsən bütün xarici siyasət məsələlərini anası ilə məsləhətləşir, ən məsul diplomatik danışıqlara onu göndərirdi.

Ötən əsrin əvvəllərində, 1918-ci ildə müstəqilliyini elan edən Azərbaycan gender bərabərliyini qanunvericiliyə daxil edib. Avropanın aparıcı ölkələri və ABŞ-dən əvvəl qadınlarımız üçün səsvermə hüququ dövlət səviyyəsində tanınıb. Keçmiş SSRİ dövründə də Azərbaycan beynəlxalq əlaqələrin qorunması və milli diplomatiyanın inkişaf etdirilməsi, peşəkar mütəxəssislərin yetişdirilməsi kimi məsələlərə xüsusi diqqət yetirib. Hətta bu proses 1959-1983-cü illərdə xarici işlər naziri vəzifəsində Tahirə Tahirovanın işlədiyi müddətdə xüsusilə davam edib. Tahirə Tahirova Moskvadan məhz diplomatik fəaliyyətlə məşğul olmaq barədə razılıq əldə edib və sovet Azərbaycanında dahi siyasətçi Heydər Əliyevin rəhbərliyi altında xarici işlər naziri vəzifəsində fəaliyyət göstərir. O, BMT Baş Assambleyasının işində üç dəfə iştirak edib, 1975-ci ildə isə təşkilatın sosial, humanitar və mədəni məsələlər üzrə Üçüncü Komitəsinin işinə rəhbərlik edib. Demək olar ki, ölkənin beynəlxalq arenada Tahirə xanım timsalında təmsil olunması Azərbaycanın gələcəkdə müstəqil xarici siyasətinin tanınması üçün zəmin yaradıb.

Bu gün də Azərbaycan diplomatiyası dünyada həm də qadınların simasında təmsil olunur. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın fəaliyyəti qadın diplomatiya təfəkkürünün ən parlaq və bariz nümunəsidir. Azərbaycanın beynəlxalq aləmdə əlaqələrinin genişlənməsində, inkişafında və gücləndirilməsində birinci xanımın əməyi danılmazdır. Azərbaycan milli musiqisinin, ədəbiyyatının və poeziyasının inkişafı və təbliği istiqamətindəki fəaliyyətinə, mədəniyyətlərarası dialoq sahəsində gördüyü işlərə görə Mehriban xanım Əliyeva ICESCO-nun xoşməramlı səfiri adına layiq görülüb. Gərgin və çoxşaxəli fəaliyyəti ilə ölkə diplomatiyasının inkişafına xidmət edən Mehriban Əliyeva Azərbaycanın nüfuzunu gücləndirib və ölkəmizə beynəlxalq aləmdə dostlar qazandırıb. Rəhbərlik etdiyi Heydər Əliyev Fondunun əsas fəaliyyət istiqamətlərindən birini ümumbəşəri tarixi və mədəni abidələrin qorunması, bərpası təşkil edir. Azərbaycan Fransa, İtaliya, Almaniya və Rusiya kimi dövlətlərdə tarixi abidələrin restavrasiyasında iştirak edir. Ümumiyyətlə, Avropa ölkələrinin paytaxtlarında mədəni irs abidələrinin bərpa edilməsində Azərbaycanın iştirakı ölkəmiz üçün yerli incəsənət və mədəniyyət xadimlərinin, Avropa cəmiyyətinin öndə gələn simalarının etibarını qazanmaq üçün zəmin yaradıb.

Eyni zamanda xarici işlər sistemində, beynəlxalq təşkilatlarda, səfirlik və nümayəndəliklərdə çalışan azərbaycanlı qadınlar ölkəmizin xaricdə tanıdılması, milli maraqların müdafiəsi və qlobal əməkdaşlıqların qurulmasında mühüm rol oynayan qadın diplomatlarımızın sayı kifayət qədərdir. Onlar təkcə siyasi danışıqlarda deyil, həm də humanitar, mədəni və gender əsaslı təşəbbüslərdə Azərbaycanın mövqeyini irəli aparırlar.

Qeyd edək ki, BMT-nin Beynəlxalq Qadınlar Diplomatiyada Günü münasibətilə yaydığı müraciətində qeyd edilib ki, qadınlar kabinetlərdə və parlamentlərdə işləyərkən adi insanlar, ətraf mühit və sosial birlik üçün daha yaxşı olan qanunlar və siyasətlər qəbul edirlər: ”Sülh quruculuğunda və siyasi proseslərdə onların iştirakını artırmaq tədbirləri köklü ayrı-seçkilik kontekstində qadınların faktiki bərabərliyinə nail olmaq üçün həyati əhəmiyyət kəsb edir. Diplomatiya bir ölkənin xarici dünya ilə münasibətlərini formalaşdıran, eyni zamanda insani dəyərləri ən yüksək səviyyədə təmsil edən sahədir. Sülhə, dialoqa və anlaşmaya gedən yol qadın liderliyi ilə gücləndirilir. Qadınların empatiyası, səbri və barışdırıcı yanaşmaları beynəlxalq münasibətlərdə münaqişələri həll etmək, körpülər qurmaq və davamlı sülhü bərqərar etmək üçün unikal gücdür. Qadınlar qanunverici orqanlarda təmsil olunduqda, bu, idarəetmənin effektivliyini artırır və qərarların qəbulu proseslərində daha geniş perspektivlərin və təcrübələrin nəzərə alınmasını təmin edir. Bu inklüzivlik təkcə əhalinin müxtəlifliyini əks etdirmir, həm də bütün vətəndaşların ehtiyaclarına cavab verən daha mükəmməl siyasətləri meydana çıxarır.

Acınacaqlı reallıq ondan ibarətdir ki, siyasətdə qadınlara qarşı zorakılıq gender bərabərliyinə doğru irəliləyişə mane olan mühüm problem olaraq qalır. Bu cür zorakılıq təkcə qadınların fundamental insan hüquqlarını pozmur, həm də onların siyasi proseslərdə iştirakına ciddi təhlükə yaradır. Bu, qadınları siyasətə girməkdən və ya öz fikirlərini ifadə etməkdən çəkindirən, nəticədə onların cəmiyyətə tam töhfə vermək imkanlarını sarsıdan düşmən mühit yaradır. Müraciətdə diqqətə çatdırılıb ki, qadınlar 1945-ci ildə Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin hazırlanması və imzalanmasından bəri təşkilatda mühüm rol oynayırlar. BMT Baş Assambleyası (UNGA) dünya liderlərinin ən böyük illik toplantısıdır və o, gender bərabərliyi üçün bir sıra tarixi məqamlar üçün şərait yaratsa da, qadınların təmsil olunması və iştirakı ilə bağlı hələ çox şey əldə edilməyib. BMT Baş Assambleyasının 77 illik fəaliyyəti dövründə cəmi dörd qadın sədr seçilib. Eyni zamanda, 15 üzvdən ibarət BMT Təhlükəsizlik Şurası beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. Qadınlar hazırda Təhlükəsizlik Şurasının üzvlərinin üçdə birindən bir qədər çoxunu təmsil etsələr də, bu, hələ kifayət qədər yüksək rəqəm deyil”.

## Tanınmış deputatlar qadın diplomatlara hörmət duruşu göstərdi

**Milli Məclisin deputatı Tənzilə Rüstəmxanlı ”Şərq”ə açıqlamasında deyib ki, Azərbaycan qadını öz adını dövlətçilik tariximizə əbədi həkk etdirib:**

”Ağqoyunlu sülaləsinin hökmdarı Uzun Həsənin anası Sara Xatun, Qəhrəman Tomris, XII əsrdə yaşamış şairə Məhsəti Gəncəvi, XIX əsrdə yaradıcılıqları ilə fərqlənən Xurşidbanu Natəvan, Fatma xanım Kəminə xalqımızın mədəni irsinin əvəzsiz nümayəndələridir. Bu əlamətdar gün münasibətilə diplomatiya sahəsində çalışan bütün fədakar və güclü qadınları ürəkdən təbrik edirəm. Bir qadın cəmiyyəti sədri olaraq hər gün qadınların sülh, dialoq və ədalət naminə göstərdiyi əzmkarlığın şahidiyəm. Diplomatiyada qadınların artan iştirakı cəmiyyətlərimizin daha dayanıqlı və inklüziv gələcəyi naminə mühüm töhfə verir. Fəaliyyətində məsuliyyət, zəka və dərin humanizm daşıyan bütün qadınlara təşəkkür edir, uğurlar arzulayıram”.

**Sabiq deputat Elnur Allahverdiyev də qeyd edib ki, BMT Baş Assambleyasının 2022-cü ildə qəbul etdiyi Qətnaməyə əsasən təsis edilən bu tarix qadın diplomatların beynəlxalq münasibətlərin formalaşmasında, sülh və əməkdaşlığın təşviqindəki roluna diqqət çəkmək məqsədi daşıyır:**

”Qürurvericidir ki, Azərbaycan həmin Qətnamənin əsas həmmüəlliflərindən biri olub. Azərbaycan diplomatiyası qadınların fəallığı və yüksək intellekti sayəsində daha da güclənir. Bu baxımdan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın fəaliyyəti xüsusi önəm kəsb edir. Onun humanitar sahədə təşəbbüsləri, beynəlxalq əməkdaşlıq və mədəni diplomatiyaya verdiyi töhfələr ölkəmizin dünya arenasındakı mövqeyinin möhkəmlənməsində əvəzsiz rol oynayır. Bu əlamətdar gün münasibətilə bütün qadın diplomatlarımızı təbrik edir, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıram”.

**Şəymən Bayramova**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Cənubi Qafqazın ən müasir və güclü ordusu bizik!

## Silahlı Qüvvələrimizin modernləşdirilməsi davam edir

**Əldə olunmuş milli güc, müasir ordu modeli və beynəlxalq hüquqa hörmət prinsipi - bunlar Azərbaycan Ordusunu fərqləndirən əsas meyarlardır. Hər il 26 iyun ölkəmizdə Silahlı Qüvvələr Günü kimi qeyd olunur və bu gün münasibətilə Azərbaycan Ordusunun keçdiyi şərəfli yol, qazandığı uğurlar xüsusilə vurğulanır.**

Bir günlük antiterror əməliyyatının zərgər dəqiqliyi ilə aparılması, mülki obyektlərə və mülki şəxslərə toxunulmaması, beynəlxalq hüququn tələblərinə sadiqlik, bu ordunun peşəkarlığını və prinsipial mövqeyini sübut edir. Təəssüflər olsun ki, beynəlxalq münasibətlər sistemində hüququn deyil, gücün önə çıxdığı bir dövrdə yaşayırıq. Məhz bu şəraitdə güclü dövlət üçün güclü ordu vacib şərtə çevrilib. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bu strateji hədəfə artıq nail olub - ərazi bütövlüyünü təmin edib, regional təhlükəsizliyin aparıcı dayaqlarından birinə çevrilib, müasir, çevik və özünəinamlı Silahlı Qüvvələr formalaşdırılıb.

**Milli Məclisin deputatı Samir Vəliyev ”Şərq”ə deyib ki, 26 İyun - Azərbaycan Silahlı Qüvvələri Günü bayram təqvimimizdə xüsusi yer tutur:**

”Şanlı Qarabağ zəfəri ilə böyük tarix yazan Silahlı Qüvvələrimizin adı müasir tariximizə qızıl hərflərlə yazılıb. Azərbaycanda müasir, nizami ordu quruculuğu Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Xalqın tələbi ilə 1993-cü ilin iyun ayında  Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bu istiqamətdə mühüm addımlar atıldı. 1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan münaqişəsində atəşkəs haqda müqavilə imzalandıqdan sonra Azərbaycan Milli Ordusunun formalaşması daha da sürətləndi. Həyata keçirilən uğurlu siyasət nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılmasına, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasına və döyüş ruhunun yüksəldilməsinə xüsusi diqqət ayrıldı. Ulu Öndər Heydər Əliyevin 22 may 1998-ci il tarixli Fərmanına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan olundu və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir. Hazırda isə Silahlı Qüvvələrimizin modernləşdirilməsi Ali Baş Komandan, Prezident İlham Əliyevin dövlət siyasətinin strateji isiqamətlərindəndir”.




Millət vəkilinin sözlərinə görə, ölkəmizin son illərdə dinamik inkişafı silahlı qüvvələrin büdcəsinin artması və nəticə etibarilə ordumuzun güclənməsi ilə müşayiət olunması cənab Prezidentin Ordu quruculuğu ilə əlaqədar öz vədinə sadiq olduğunu təsdiq edir: ”Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində son illərdə ordunun döyüş qabiliyyəti daha da yüksəlib, maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılıb. Cənubi Qafqazda ən müasir və güclü ordu hesab olunan Azərbaycan Milli Ordusunun dünyanın ən güclü 50 ordusu sırasında olması, həm də vaxtında aparılan islahatlarla bağlıdır.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev 2020-ci il 27 sentyabrda əks hücum əməliyyatı ilə başlayan 44 günlük Vətən müharibəsində düşmən üzərində qələbə qazanaraq tarixi nailiyyətə imza atdı. Qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanıcanı bahasına bütün dünya Azərbaycanın şanlı qələbəsinin şahidi oldu. Füzuli, Hadrut, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa, Kəlbəcər, Ağdam, Laçın və adı çəkilən rayonların 300-dən çox yaşayış məntəqəsi azad edildi. Düşmənin kapitulyasiyası ordumuzun gücü hesabına əldə olunmuş nəticədir. 44 gün ərzində müntəzəm surətdə fərqli mənbələrdən və ünvanlardan müxtəlif təzyiqlər, təhdidlərin olmasına rəğmən Azərbaycan zəfər çaldı. 2023-cü ilin sentyabrında isə keçirilən antiterror tədbirləri nəticəsində isə Qarabağ erməni separatçılarından tam təmizləndi və dövlət suverenliyimiz təmin olundu. Müzəffər Ali Baş Komandan bununla tarixi ədaləti bərpa etdi.

**Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev Azərbaycan Ordusu haqqında bildirib:**

”Bu gün bizim ordumuz dünya miqyasında güclü ordular sırasındadır. Biz bütün dünyaya göstərmişik ki, yenilməz xalq Azərbaycan xalqıdır, müzəffər ordu Azərbaycan Ordusudur. Erməni mifini məhv etdik, erməni uydurmalarını məhv etdik, onları yerinə oturtduq, onlar bizim qabağımızda diz çöküblər və onlar bundan sonra bu damğa ilə yaşayacaqlar, rəzalət damğası ilə yaşayacaqlar. Biz isə bundan sonra qürur hissi ilə yaşayacağıq - müzəffər xalq kimi, güclü dövlət kimi, yenilməz ordu kimi, güclü iradə sahibi kimi”.

**Samir Vəliyev əlavə edib ki, bu gün ”Dəmir yumruq” Azərbaycan xalqının və xalq-ordu birliyinin rəmzidir:**

”Vətən müharibəsi zamanı Azərbaycan xalqı yumruq kimi birləşdi. Bu birlik gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkanlar yaradacaq. Dövlətin gücü Azərbaycan xalqının dəstəyindədir. Dövlət siyasəti xalq tərəfindən dəstəklənir və bu siyasətə böyük inam var. Müharibə və onun nəticələri bir daha xalq-iqtidar birliyini və qarşılıqlı inamını nümayiş etdirdi. Biz Azərbaycan xalqı olaraq Ordumuzla hər zaman qürur duyuruq”.

**Aynur Babazadə**

# Öldürə bilər!

## Təbiətdə gəzmək artıq risk daşıyır



**Qardaş Türkiyənin İstanbul, Kayseri, Tokat, Sivas, Ərzurum bölgələrində gənə sancmalarının ciddi şəkildə artması həyəcan təbili çalınmasını zəruri edib. Məlumata görə, 2025-ci ilin yanvar-iyun ayları ərzində 7.801 gənə sancması faktı təsbir edilib, 14 ölüm hadisəsi qeydə alınıb.**

### Ekspert xəbərdarlığı: "Gənənin ağız suyu keyləşdirici təsir göstərir, bu səbəbdən insanlar gecikmiş reaksiya verir və infeksiya yayılır"

Belə bir tablo gənə sancması nəticəsində Krım-Kongo qanamalı qızdırması, zoonoz xəstəliklərin yayılma təhlükəsini artırır ki, bu da əhalinin sağlamlığını təhdid edir. Həmçinin bu hal kənd təsərrüfatına, xüsusən də heyvandarlığa zərər vurur. Ölkəmizdə vəziyyət necədir? Mütəxəssislər bildirir ki, gənələrin təkrar fəallaşması avqustun ikinci yarısında başlayır. Nəzərə alsaq ki, avqust həm də ən isti və həm də məzuniyyətlər zamanıdır, təbiət qoynunda istirahət etməyi sevənlər daha da ehtiyatlı olmalıdırlar.

Gənə dişləməsi dərhal müdaxilə tələb edən bir vəziyyətdir, çünki bəzi gənələr zərərli xəstəliklər, məsələn, Lyme xəstəliyi və ya ”Qaraçı” (qızdırma) xəstəliyi kimi infeksiyalar yaya bilər. Gənə dişləməsində doğru yanaşma həm gənənin təhlükəsiz şəkildə çıxarılmasını, həm də yaranın infeksiyadan qorunmasını təmin etməkdən ibarətdir. Mütəxəssislər qeyd edir ki, gənəni mümkün qədər tez çıxarmaq vacibdir, çünki daha uzun müddət dəridə qaldıqca, infeksiya riski də artır. Gənəni çıxarmaq üçün incə başlı bir cımbız (pinset) istifadə edilməlidir. Gənəni dərinin yaxın yerindən alətlə möhkəm tutmaq və düz bir şəkildə yavaşca çəkib çıxarmaq lazımdır. Gənəni əzmək və ya qoparmaq olmaz. Gənənin başının və ağız hissəsinin tam çıxdığından əmin olmaq gərəkdir. Əgər gənə dərinə nüfuz edibsə, çıxarmaq çətindirsə, vaxt itirmədən tibb müəssisəsinə müraciət edilməlidir. Gənə çıxarıldıqdan sonra həşəratın dişinin yeri sabun və su ilə yaxşıca yuyulmalıdır. Bu zaman antiseptik məhlullardan, məsələn, spirt və ya povidon-yoddan istifadə edilməlidir. Gənəni bir qabda saxlayaraq *(məsələn, spirt dolu qabda)* laboratoriya analizi üçün tibbi müəssisəyə göndərilə bilər. Bu, gənənin hansı növ olduğunu müəyyən etmək üçün faydalıdır. Gənənin dişlədiyi yer ən az 2-3 həftə müşahidə edilməlidir. Əgər dəri ətrafında halqa şəklində qızartı əmələ gələrsə, qızdırma, baş ağrısı, əzələ ağrıları və ya yorğunluq baş verərsə, həkimə müraciət olunmalıdır. Dəridə şişkinlik, irin, istilik hissi müşahidə edilə bilər. Əgər gənənin Lyme xəstəliyi daşıdığı məlum olarsa və ya dişləmədən sonra infeksiya riski yüksəkdirsə, həkim profilaktik antibiotik təyin edə bilər. Müəyyən əlamətlər yaranarsa, infeksiyanın diaqnozu üçün qan analizi tələb oluna bilər. Dəridə qaşınma və ya şişkinlik varsa, soyudulmuş parça və ya buz tətbiq etməklə soyuq kampress qoyulmalıdır. Qaşınma və ya allergik reaksiyalara qarşı Loratadin və ya Difenhidramin kimi antihistaminik dərmanlar istifadə edilə bilər. Dəridə qıcıqlanma varsa, sakitləşdirici kremlərdən istifadə edilir. Gənə təhlükəsindən qorunmaq üçün təbiət qoynunda, meşəlik ərazilərdə, mal-qaranın saxlandığı yerlərdə geyimlər uzun qollu və ətəkli olmalıdır. Geyimlər açıq rənglərdə olduqda da gənələr daha tez gözə çarpır. Mütləqdir ki, şalvarın balaqları corabın içinə salınsın, bu, gənələrin dəriyə nüfuz etməsinin qarşısını alır. Evə qayıtdıqda isə paltarları diqqətlə yoxlamaq, tikiş yerlərinə baxmaq, həşəratlar varsa, müəyyən edib zərərsizləşdirmək lazımdır. Ev heyvanlarının dərisində də gənə yoxlaması aparılmalı və müvafiq qoruyucu vasitələrdən istifadə edilməlidir. Müətəxssislər bildirir ki, gənə dişləməsi dərhal müdaxilə tələb edən vəziyyətdir. Gənəni təhlükəsiz şəkildə çıxarmaq, yaranı təmizləmək və infeksiyanın qarşısını almaq vacibdir. Gənə dişləməsindən sonra ciddi simptomlar yaranarsa və ya infeksiya riski varsa, mütləq tibbi yardım alınmalıdır. Bu, mümkün ciddi sağlamlıq problemlərindən qorunmağa kömək edəcəkdir. Gənə dişləməsi nəticəsində Ensefalit kimi çox ciddi xəstəlik, eləcə də Borrelioz, Anaplazmoz və Ehrlixioz kimi infeksiyalara yoluxma baş verir. Xəstəliklərə qarşı peyvənd olunmaq təhlükənin qarşısını almağa kömək edir. Təbiətdə gəzinti zamanı quru ot və yarpaqları olan yerlərdən kənar olmaq məsləhətdir. Gənə dişləməsini insan hiss etmir, çünki gənənin ağız suyu keyləşdirici təsirə malikdir. Bunun ”sayəsində” qanın laxtalanmasına da imkan vermir və uzun müddət qanı sorur. Əlamətlər sonra üzə çıxır. Buna görə də insanlar ehtiyatlı olmalı, dəridə qızartı, qaşınma əmələ gəldikdə dəridə gənənin olub-olmamasına diqqət etməli və həkimə müraciət etməlidirlər.

**Məlahət Rzayeva**

# “Deepfake" Azərbaycanda təhlükə siqnalı verir

**Texnologiyanın inkişafı ilə həyatımız asanlaşsa da, bu, eyni zamanda daha mürəkkəb fırıldaqçılıq hallarına zəmin yaradır. Azərbaycanda hələlik ”deepfake” texnologiyası ilə bağlı ciddi hadisələr müşahidə olunmasa da, mütəxəssislər yaxın gələcəkdə bu riskin aktual olacağını istisna etmirlər.**

ABB Bankın ”Anti-Fraud” Analitik Komandasının rəhbəri Araz Həsənzadə ”Fintex Summit” Maliyyə və Texnologiyalar Sərgisində bu mövzuya toxunub.

O xatırladıb ki, 2017-ci ildə bankların mobil tətbiqlərini istifadə etmək üçün mütləq qaydada bankomata yaxınlaşmaq lazım idi: ”Bankomatdan müəyyən bir qəbz götürməli və həmin qəbz əsasında mobil tətbiq üzərində qeydiyyatdan keçməli idik. Bu gün isə banka yaxınlaşmadan belə bank hesabı aça bilirik. Həmin bank hesablarından istifadə edə, hətta kredit götürə və depozit yerləşdirə və bir çox funksional imkanlardan istifadə edə bilərik. Təbii ki, bu funksional imkanların istifadəsi özü ilə müəyyən təhlükələr gətirir. Bu təhlükələr ikitərəflidir. Birincisi odur ki, bank üçün əlavə təhlükələri yaradır. İkincisi isə müştəriyə qarşı təhlükələri yaradır. Biz ”fraud” (fırıldaqçılıq) deyəndə yalnız bankın itkilərini nəzərdə tutmuruq, eyni zamanda müştəri təhlükəsizliyinin təmin olunmasını da nəzərdə tuturuq. ”Fraud” tarixçəsi əsasən kart oğurluğu və ”skimming” əməliyyatlarında başlayır. Xaricdə bankomatlarda qurğular quraşdırırdılar və kart məlumatları oğurlanaraq və bunu kopyalayaraq digər kartlarla vəsaitlərin oğurlanması əməliyyatları həyata keçirilirdi. İnsanlarda maliyyə-inklüzivliyi artdıqca, onlar daha çox maliyyə resurslarla çıxışı əldə etdikcə artıq dələduzlar daha rahat variantlar taparaq ən aşağı xərclə maliyyə vəsaitlərini ələ keçirə bilirlər”.

Araz Həsənzadə əlavə edib ki, bu gün Azərbaycanda ”account takeover”- mobil bankçılıq hesabların ələ keçirilməsi, ”phishing” halları, ”advanced scam” - yəni, özünü bank və ya polis əməkdaşı kimi təqdim edən şəxslərin vətəndaşları aldatması ilə həmin maliyyə vəsaitlərinin ələ keçirilməsi halları baş verir: ”Əvvəllər dələduzluq halları sadəcə bir kanal - kart kanalı üzərindən baş verirdi və banklar üçün bununla mübarizə aparmaq olduqca rahat idi. Hazırkı situasiyaya biz daha çox ”omni-channel” olaraq baxırıq: Müştərinin mobil tətbiq, kart sistemləri və internet bankçılıqda həyata keçirdiyi əməliyyatları kanallar arası (cross-channel) olaraq analiz etməliyik ki, biz bu tip dələduzluq hallarının qarşısını ala bilək. Təbii ki, bu tip dələduzluq hallarının qarşısını almaq adi qaydaların idarə olunması kimi həllərlə baş vermir”.



**Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyası (AİKTSA) İdarə Heyətinin sədri Elvin Abbasov ”Şərq”ə açıqlamasında ”deepfake” texnologiyasının ”dərin aldatma” mənasını verdiyini, bununla vətəndaşların real səs və videogörüntülərinin eyniləşdirilərək yaxın qohumlarından pul istənilməsini ifadə etdiyini bildirib.**

AİKTSA sədrinin sözlərinə görə, Azərbaycanda ”deepfake” texnologiyası kütləvi istifadə olunmasa da, zaman-zaman müxtəlif fırıldaqçılıq ssenarilərində tətbiq olunub: ”Xatırlayırsınızsa, ötən il ölkəmizdə kiberdələduzlar bu texnologiyadan istifadə edərək vətəndaşlara yaxınlarının adından mesajlar göndərir, pul tələb edirdilər. Məsələn, ailə üzvlərinin qəza keçirməsi və ya hansısa hadisəyə düşməsi barədə yalan məlumatlar verilib, insanlardan müəyyən məbləğdə vəsait göndərilməsi istənilib. Bu hallarla bağlı mediada, dövlətin rəsmi telekanallarında geniş şəkildə əhaliyə xəbərdarlıq edildi. Daxili İşlər Nazirliyi də Azərbaycanda eyniləşdirilmiş səs yazılarının yayılması barədə rəsmi açıqlama verərək, kiberdələduzların bu üsulla vəsait ələ keçirməyə çalışdıqlarını bildirdi.

## Banklar diqqətli olmasa, "deepfake" inamı məhv edəcək

## Pulunuzu ailə üzvünüz istəmir, dələduz istəyir

”Deepfake” texnologiyası yüksək performanslı kompüterlər tələb etdiyindən, resurs çatışmazlığı səbəbindən dələduzlar bu texnologiyanı geniş miqyasda istifadə edə bilmədilər. Buna baxmayaraq, video eyniləşdirmə üçün açıq internet resurslarının mövcudluğu yaxın gələcəkdə Azərbaycanda bu texnologiyanın kiberdələduzluqda daha geniş yayılmasına səbəb ola bilər.

Resurs çatışmazlığı səbəbindən dələduzlar prosesi kütləviləşdirə bilmədilər. Belə ki, ”deepfake” texnologiyası yüksək performanslı kompüterlər istəyir, kiber dələduzların isə bu cür kompüterlərə çıxışları məhdud olduğundan bu texnologiyadan kütləvi şəkildə istifadə edib vətəndaşların pullarını mənimsəyə bilmirlər.

Lakin biz bilməliyik ki, video eyniləşdirmə açıq internet resurslarında mövcuddur və yaxın gələcəkdə Azərbaycanda ”deepfake” texnologiyasının kiberdələduzluq vasitələrində istifadə olunacağı istisna deyil”.

**E.Abbasov qeyd edib ki, dünyada belə bir alət yoxdur ki, həmin videoya baxan zaman bilək ki, bu ”deepfake” ilə hazırlanıb:**

”Vətəndaşlar bu sahədə maariflənməlidirlər. Biznes çağırışlar olan zaman həmin qurumun rəsmi saytlarından araşdırmaq lazımdır. İnsanlar sosial şəbəkələrdə təklif edilən linklərə daxil olub yönlənməməlidirlər. Kiberdələduzların səs və videogörüntüləri ilə insanları manipulyasiya etməsini nəzərə almalı və həmin an təlaşa düşməməliyik. Məsələni aydınlaşdırmadan, şəxslə real əlaqə qurmadan pul vəsaitlərinin köçürülməsi əməliyyatını icra etmək olmaz.

Sözsüz ki, burada vətəndaşlarla yanaşı dövlət qurumlarının, böyük korporativ şirkətlərin də üzərinə böyük iş düşür. Bank sektoru öz müştərilərini qorumaq üçün maarifləndirici sosial məsuliyyət tədbirləri həyata keçirməlidir. Banklar müştərilərinin rəqəmsal səriştəliliyinin inkişafında maraqlı olmalıdırlar. ”Deepfake” təhlükəsini bank sektorunun əməkdaşı gündəmə gətirib, elə problemin həlli də onların əlindədir. Əgər ”dərin aldatma” texnologiyaları ilə vəsaitlərin oğurlanması faktları ölkəmizdə kütləvi xarakter alsa, vətəndaşların bank sektoruna inamı itəcək. Əgər banklar vətəndaşların maariflənməsi üçün sosial məsuliyyətlilik çərçivəsində fəaliyyət proqramları həyata keçirsələr, vətəndaşların da banklara hörməti artacaq”.

**Şəymən Bayramova**



## SEN ÇOK YAŞA AZERBAYCAN

”Ayrılırmı gönül candan
Türkiye Azerbaycandan”
Şehitlikte selama dur
Yankılansın Hıyabandan.

Gobustandan Şamahıya
İster atlı ister yaya
Genceye var da haber sor
Nizamiden Ahundovdan.

Karabağ ah Karabağ
Ovalık, Dağlık Karabağ
Harı Bülbül koku salar
Cıdır Düzü otağından.

Zafer Yolu apar bizi
Korkulardan kopar bizi
Sen çok yaşa Azerbaycan
Candan öte geçtik candan.

***Osman Oktay/ 14 Haziran 2025 - Ankara***

## Milyonluq növbə başladı

Gün çıxanda işləyirlər, batanda növbəyə dururlar



**Antalyanın Döşəməaltı rayonunda 15 minə yaxın əl toxuması xalça və kilim günəşdə mikroblardan təmizlənməsi və rənginin pastelləşməsi üçün buğda tarlalarına sərilir.**

”Şərq” xəbər verir ki, gündüz günəş altında çevrilərək qurudulan xalçalar, gecə oğurluq, yağış və heyvanlardan qorunmaq üçün sahə sahibləri tərəfindən növbə ilə qorunur.

Sahə sahibləri bu dəyərli xalçaları qorumaq üçün sabaha qədər tarlada növbə tutur.

**Turan**

Təsisçi: “Şərq Media Qrup” MMC
Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Nihat Müzəffər, Şəhanə Ziyad, Aynur Babazadə, Fidan Həmişəyeva, Yusif Sultanoğlu

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap olunur

“Şərq Media Qrup” MMC-yə daxildir:
“Şərq” qəzeti və sherg.az saytı
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
Kapital Bank ASC Yasamal filialı
Kod: 200037
VÖEN: 9900003611
M/H: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.: AIIBAZ2XXXX
AZM hesab nömrəsi:
AZ74AIIB400500G9441595487103
VÖEN 1307632991

Tirajı: 1500 Sifariş: 1339



## Elon Mask Avropada yarışdan geri qalır

**"Tesla"nın Avropadakı satışları may ayında ötən ilin eyni dövrü ilə müqayisədə 27,9 faiz azalıb. Bu, şirkətin ardıcıl beşinci ay satış itkisi yaşamasıdır.**

"Şərq" xəbər verir ki, bütün bunlara baxmayaraq, Avropada elektrikli avtomobil satışları 27,2 faiz artıb.

Alıcıların daha ucuz Çin istehsalı modellərə yönəlməsi və Elon Maskın siyasətlərinə etirazlar satışların düşməsində rol oynayıb. "Tesla"nın Avropa bazarındakı payı isə 1,8 faizdən 1,2 faizə düşüb. ACEA-nın məlumatına görə, Avropa ümumilikdə may ayında 1,11 milyon yeni avtomobil satışı ilə 1,9 faizlik artım qeydə alıb.

Turan

## 3 rayonda zəhərsiz ilanlar artır - öldürməyin!

Siçanlarla mübarizədə vacib rol oynayır



**Yay fəslinin gəlməsi ilə İstanbulun Küçükçekmece, Arnavutköy və Sultanqazi rayonlarında ilanların sayında artım müşahidə olunur.**

Ekspertlər bildirir ki, bu ilanların əksəriyyəti zəhərsizdir və ekosistem üçün faydalıdır. 2,5 metrə qədər uzanan sarı ilanlar da daxil olmaqla, bu növlər zərərsizdir və onları öldürmək ətraf mühitə ziyan vurur.

"Şərq" xəbər verir ki, İstanbul Universitetindən Dr. Ergün Bacak qeyd edib ki, yalnız bir zəhərli ilan növü - burunlu engərək var və o da çox rast gəlinmir. Digər növlər, xüsusən Hazer və Eskülap ilanları, siçanlarla mübarizədə vacib rol oynayır. İlanla qarşılaşanlara təhlükəsizlik güclərinə və ya müvafiq qurumlara müraciət etmələri tövsiyə olunur. Dr. Bacak bildirib ki, zəhərli və zəhərsiz ilanları ayırmaq asan deyil, amma zəhərli ilanların göz bəbəkləri dik, zəhərsizlərinki isə yuvarlaq olur.

Ziraat mütəxəssisi Ömer Demir isə insanların yaşadıqları əraziləri təmiz saxlamasını, ilanların gizlənəcəyi otluq, daşlıq yerləri aradan qaldırmasını məsləhət görüb. O, filmlərdəki kimi zəhəri ağızla sorub çıxarmağın təhlükəli olduğunu və buna qəti yol verilməməsini vurğulayıb. Nəticə olaraq ilanlar zərərsiz olduqda öldürülməməlidir. Yalnız təhlükə olduqda tədbir görülməli, əks halda təbiətə zərər verilir.

Turan

## Gənə kabusu böyüyür

Bir gündə daha iki nəfər həyatını itirdi



**Türkiyənin Gümüşhane və Yozqat bölgəsində kənə dişləməsi nəticəsində yoluxan Krım-Konqo Qanamalı Qızdırması (KKQK) xəstəliyi şübhəsi ilə xəstəxanaya yerləşdirilən iki nəfər həyatını itirib.**

"Şərq" xəbər verir ki, Gümüşhanənin Şiran rayonunda sürüsünə çobanlıq edən 39 yaşlı Alaattin Uzuntürk bir həftə əvvəl gənə tərəfindən dişlənib. Bir müddət sonra özünü pis hiss edən Uzuntürk ailə üzvləri tərəfindən Kürtün dövlət xəstəxanasına aparılıb. Vəziyyəti ağırlaşdığından Qara dəniz Texniki Universitetinin (KTÜ) Tibb Fakültəsi Farabi xəstəxanasına təxliyə olunub. KKQK xəstəliyi şübhəsi ilə reanimasiyaya yerləşdirilən Uzuntürk həkimlərin müdaxiləsinə baxmayaraq, həyatını itirib.

Yozqatın Sarıkaya rayonunun Alembey kəndində yaşayan 66 yaşlı Celal Sarsılmaz da təxminən bir həftə əvvəl gənə dişləməsinə məruz qalıb. Bir müddət sonra səhhətində problem yaranan Sarsılmaz yaxınları tərəfindən Yozqatdakı xəstəxanaya aparılıb. Vəziyyəti pisləşdiyinə görə o, Sivas Cümhuriyyət Universiteti Sağlıq Xidmətləri Tətbiq və Tədqiqat xəstəxanasına köçürülüb. KKQK şübhəsi ilə anesteziya reanimasiya şöbəsində müalicəyə cəlb edilən Sarsılmaz göstərilən tibbi yardıma baxmayaraq həyatını itirib.

Turan

## Emre Güral futbolu buraxdı, hipnozçu oldu



**Keçmiş futbolçu Emre Güral, idman karyerasını başa vuraraq hipnoz etməyə başladı. Güral, mental gücün vacibliyini futbol oynayarkən dərk etdiyini və bu sahəyə marağının sonradan yarandığını bildirib.**

"Şərq" xəbər verir ki, futbolu buraxdıqdan sonra Dubayda daşınmaz əmlak şirkəti quran Güral, həm də futbol akademiyası yaradaraq gənclərlə işləyir. Əsas diqqətini isə hipnoz və insanlara dəstək üzərinə cəmləyib. Güral, danışanları arasında futbolçuların da olduğunu təsdiqləyib, lakin ad açıqlamayıb: "Zehni hazırlıq performansı ciddi şəkildə artırır," - deyə bildirib.

Turan




# Qızına gələcək qurmaq istədi

Nurayın uğur hekayəsi Türkiyənin hər yerində nümunə oldu

**Türkiyənin Nevşəhər bölgəsində yaşayan Nuray Görgün, qızına gələcək qurmaq arzusu ilə başladığı çiyələk yetişdiriciliyində, cəmi 5 ildə 60 min tinglik istehsalçıya çevrildi. Yalnız 5-6 çiyələkdən başlayan bu yol, qadın əməyinin və qətiyyətinin simvoluna çevrildi.**

"Şərq" xəbər verir ki, Nuray xanımın bu işə başlaması yutubda izlədiyi çiyələk yetişdirmə videosu ilə olub. İlk mərhələdə 13 min 500 tinglə yola çıxan Görgün, məhsulları ilə tezliklə tanındı və ətrafında güvən qazandı. O deyir: "Əvvəlcə qızım üçün iş yeri açmaq istədim, sonra böyük sevgi ilə davam etdim".

Tarlasında özü işləyən, suvarma sistemini quran, tingləri əlləri ilə əkən Nuray xanım hər şeyi internetdən öyrənib. "Qadın qadına işləyirik" deyən Görgün, həyat yoldaşının xatirəsinə bağlı olduğu bu torpaqlarda qadın gücünün nə qədər böyük olduğunu göstərir.

Onun fəaliyyəti əvvəlcə Nevşəhər Kənd Təsərrüfatı İdarəsinin, sonra isə Kənd Təsərrüfatı və Meşə Nazirliyinin diqqətini çəkdi. "Torpağa iz buraxan qadınlar" proqramı çərçivəsində Prezident Administrasiyasına dəvət olunan Görgünün uğur hekayəsi Türkiyənin hər yerində nümunə oldu. Bu il soyuq hava səbəbindən məhsul yığımına gec başlanılıb və həftəlik 1 tona qədər olan məhsul miqdarı 600-700 kiloqram civarına düşüb.



Görgün çiyələklərinin tam təbii olduğunu vurğulayır: "Hormon istifadə etmirəm. Polis, həkim, valilər də alırlar. Soyuducuda da 1 həftə xarab olmadan qalır".

O, kənd təsərrüfatının səbir və sevgi tələb etdiyini söyləyərək, "Səhər saat 5:30-da tarlada olmalısan. Günəşi, yorğunluğu sevməlisən. 30 yaşdan sonra da başlamaq olar. Universitet oxumaq da olar, çiyələk yetişdirmək də", - deyə qadınlara ilham verir.

Turan




# Dənizdə tullandı, həyatı alt-üst oldu

Üç ildir yataq xəstəsidir, xanımı ailəsi üçün əsl savaş verir

**Ebru Keçecioğlu Aygün 1993-cü ildə Aydında anadan olub. Anası evdar qadın, atası dükançı olan Ebru dünyaya o qədər də xoşbəxt uşaq kimi gəlməyib. Anası və atası ona hamilə olanda ayrılıblar. Balaca qızcığaz 9 yaşına kimi anası, nənəsi və sevimli babası ilə birgə yaşayıb.**

Ebrunun uşaqlığı ilə bağlı çox gözəl xatirələri olub, amma ən unudulmazları babası ilə keçirdiyi xatirələr olub. Çünki babası onun, həm də atası idi. O, Ebrunu sevgisi, şəfqəti, dəstəyi ilə böyüdüb, qayğısına qalıb. Ebru gələcək həyat yoldaşı ilə 2008-ci ildə orta məktəbdə ikən tanış olub. Onlar birlikdə böyüyüblər. Sonra bir araya gəliblər və Ayaz və Ömər adlı iki övladları olub. Ebru, əri və uşaqları 3 il əvvələ qədər tam kəsin həsəd apardığı çox xoşbəxt bir həyat sürüblər. 2022-ci il isə dönüş nöqtəsi olub. "Şərq" "Milliyet.com.tr"yə istinadən bildirir ki, ailə Fəthiyyəyə köçdükdən sonra yaşam tərzləri dəyişib. Ebrunun həyat yoldaşı başından ağır zədə alıb. Bu, istirtahət etmək üçün getdikləri yerdə, ərinin suya başıaşağı tullanması nəticəsində olub. O gündən həyat yoldaşı 3 ildir yataq xəstəsidir. "Müəyyən irəliləyişlər var, amma həkimlər deyirlər ki, fiziki müalicə mərkəzində müntəzəm və intensiv müalicə alsa, öz ehtiyaclarını ödəyə biləcək. Təəssüf ki, belə mərkəzlərdə müalicə almaq ciddi maliyyə yüküdür. Bu xəstəliyi olanlar və onların qohumları çox yaxşı bilirlər: onurğa bezi. İnsanın xəstəliyi varsa, sağalmaq şansınız var, təəssüf ki, maddi gücümüz qalmadı, hələ də ərim və övladlarım üçün güclü olmağa çalışıram". Yaşadıqları bədbəxt hadisə ilə həyatın nə qədər kövrək və dəyişkən olduğunu anladığını söyləyən Ebru, "bir an hər şey yaxşı olar, bir an hər şey alt-üst ola bilər. Halbuki insan sevdiyi üçün ucada dayana bilər. Ailə sevgi və səbir deməkdir. Bunlar baş verəndə mübarizə apara bilərsən. Onu da deyim ki, mənə qalan sevgi mirası bu gün babamın qarşısında dayanmaqdır. Şadam ki, Allah məni ona əmanət edibsə, bu gün buradayamsa, onun sayəsindədir ki, bu müddət ərzində övladlarımız bizim ən böyük xoşbəxtliyimiz, gücümüz və ümidimiz olub", söyləyib. Yay aylarında su qəzaları nəticəsində boyun və bel sınıqları xüsusilə tətil bölgələrində olduqca tez-tez baş verir. Dənizə və ya hovuza nəzarətsiz atlamalar, suda təhlükəli hərəkətlər və diqqətsizlik bu qəzaların əsas səbəbləri olduğunu izah edən Beyin, Sinir və Onurğa Cərrahiyyəsi mütəxəssisi professor Zafər Orkun Toktaş, "suya başvurma zamanı baş verən qəzalar, xüsusilə gənclər arasında ciddi onurğa travmalarına səbəb ola bilər. Suya başvurma və ya balanssız tullanma, boyun fəqərələrində ciddi zədələnmələrə və qırıqlara səbəb ola bilər, onurğa beyni də zədələnə bilər və bu, sinir sistemində ciddi ziyan vurur, çünki təsirlənmiş sinirlər bədənin bütün alt hissələrini idarə edir, iflic, sidik və nəcisdə çətinlik yaranır. Əvvəlcə ancaq baş ağrısı, boyun ağrısı, qol və ayaqlarda uyuşma kimi simptomlar ciddi qəbul edilməlidir. Xüsusilə dayaz suda olduqda çox təhlükəlidir. Suya girdiyiniz ərazinin dərinliyi yetərli deyilsə və ya suyun altında cisim varsa, kəllə-beyin zərbəsi nəticəsində kəllə-beyin travması və ya onurğa sınıqları baş verə bilər. Bu, onurğa beyninin zədələnməsinə, daimi iflic və hətta ölümcül nəticələrə gətirib çıxara bilər. Ona görə də suyun dərinliyi mütləq nəzərə alınmalıdır. Suya baş vurmadan əvvəl mümkünsə, təhlükəsizlik pillələrindən istifadə etmək lazımdır.

Məlahət

## Leyləyin balalarına elektron qolbaq taxıldı

Bursanın simvolu Yarenin nəslini indi canlı izləmək mümkün olacaq

**Bursada balıqçı Adəm Yılmazla dostluğu ilə tanınan Yaren leyləyin 4 balası qısa müddətə yuvadan götürülüb. Balalar müayinə edilib, sonra isə iki balaya xüsusi elektron qolbaq taxılıb.**

"Şərq" "Milliyet.com.tr"yə istinadən bildirir ki, Bursanın Karacabey səmtində balıqçı Adəm Yılmazla dostluğu ilə Türkiyənin simvollarından birinə çevrilən Yaren leyləyinin balaları ilə bağlı diqqətçəkən inkişaf yaşanıb. Təbiəti Mühafizə və Milli Parklar qrupları qısa müddət ərzində balaları yuvadan götürərək sağlamlıqlarına baxış keçiriblər. Lakin bu, yeganə real məqsəd deyildi. Ölçmələr aparıldı, nümunələr götürüldü və sonra iki bala xüsusi sistem bağlandı. Bu



sistem sayəsində Yaren nəslini artıq səmada addım-addım izləmək olar. Bursanın Karacabey rayonunda balıqçı Adem Yılmaz ilə dostluğu ilə tanınan Yaren leyləyin balalarının sağlamlıqları yoxlanılıb və izlənilmələri üçün peyk ötürücü bağlanıb. Təbiəti Mühafizə və Milli Parklar Ümumi Müdirliyi (DKPM) 2-ci Region Müdirliyi qrupları Bursa Uluabat gölü ətrafında apardıqları işlər çərçivəsində leylək balalarının miqrasiya yollarını onlara zəng vuraraq izləməyə başlayıb. Quş tədqiqatçıları ilə birgə həyata keçirilən işdə Avropa Leylək Kəndləri Birliyinin üzvü Eskikaraağaçdan olan balıqçı Adem Yılmaz ilə dostluğu ilə tanınan Yaren leyləyin 4 balası qısa müddətə yuvadan götürülərək dimdiyi və ayaq uzunluğu ölçülüb. Bundan əlavə, elmi analizlərdə istifadə edilmək üçün tük nümunələri götürülüb. Ölçmə və qeydə alma prosesləri başa çatdıqdan sonra 4 cücə halqalanmış və bu cücələrdən 2-nə peyk ötürücüləri qoşulub. Lazımi yoxlamalardan sonra cücələr təhlükəsiz şəkildə yuvalarına buraxılıblar.

Məlahət